HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 46 (786) ▪ 25 noyabr 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş, bəşəri dəyərlərə sadiq ölkədir

*Noyabrın 17-də Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Forumda iştirak ediblər.*

Əvvəlcə təşkilatın mənzil-qərargahına gələn Prezident İlham Əliyev UNESCO-nun qonaq kitabına ürək sözlərini yazıb. Sonra dövlətimizin başçısının UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuura ilə qısa söhbətləri olub.

UNESCO Baş Konfransının 38-ci sessiyasının sədri, Namibiyanın informasiya və kommunikasiya texnologiyaları nazirinin müavini Stanley Mutumba Simataa tədbiri açaraq Forumun gündəliyi barədə məlumat verib. Stanley Mutumba Simataa Azərbaycan-UNESCO əlaqələrinə də toxunub və ölkəmizi bu qurumun etibarlı tərəfdaşına çevrildiyini, bütün sahələrdə UNESCO-ya dəstək göstərdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, Azərbaycanın dövlət başçısının «Bakı prosesi» təşəbbüsü ilə çıxış etməsi və ötən illər ərzində mədəniyyətlərarası dialoq üzrə üç dünya forumuna müvəffəqiyyətlə ev sahibliyini həyata keçirməsi və yaxın gələcəkdə nəzərdə tutulan BMT-nin Sivilizasiyalar Alyansının yeddinci Qlobal Forumuna təşkilatçılığı Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə sadiq qalmasının göstəricisidir.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə noyabrın 13-də Parisdə baş vermiş dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına dərin hüznlə başsağlığı verib. Bildirib ki, bu dəhşətli terror hadisəsi beynəlxalq ictimaiyyəti bu bəla ilə mübarizə aparmaq üçün səylərini birləşdirməyə dəvət edir: «Dünyanın heç bir ölkəsinə bu cür hücumlara məruz qalmayacağı barədə yüz faiz zəmanət verilə bilməz. Buna görə də beynəlxalq ictimaiyyətin birgə səyləri bizə bu bəla ilə mübarizə aparmağa kömək edə bilər. Keçmişdə çoxsaylı terror hadisələrinin qurbanı olmuş bir ölkə kimi Azərbaycan terrorizmə qarşı mübarizədə öz rolunu oynayır və bu rol beynəlxalq ictimaiyyət tərəfindən qiymətləndirilir».

Azərbaycanın UNESCO-nun fəal üzvü olduğunu və 23 ildən artıqdır ki, bəşəri dəyərlərin təşviqində öz rolunu oynamaqda davam etdiyini deyən dövlətimizin başçısı respublikamızın UNESCO-nun bütün konvensiyalarını və digər hüquqi aktlarını imzaladığını və ratifikasiya etdiyini xatırladıb. UNESCO ilə sıx əlaqələrə toxunan Prezident İlham Əliyev dünya irsi siyahısına daxil olan İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qayaüstü rəsmləri kimi tarixi abidələrimizin UNESCO tərəfindən qorunan abidələr sırasında yer almasını yüksək dəyərləndirib: «Azərbaycan qədim mədəniyyət, tarix, adət-ənənələr diyarıdır. Lakin, eyni zamanda, müstəqil dövlət kimi yalnız 24 il yaşayan çox gənc bir dövlətdir. Bu illər bir siyasi sistemdən digər siyasi sistemə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid illəri olmuşdur. Bu illər ərzində ölkəmiz uğurlar əldə edə bilmişdir. Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Bizim ən böyük siyasi və diplomatik uğurumuz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməyimiz olub. Bu da beynəlxalq ictimaiyyət tərəfindən qlobal arenada Azərbaycanın rolunun, uğurlu fəaliyyətinin tanınması və bizim nailiyyətlərimizə hörmət, etimad və minnətdarlıq əlaməti idi».



Ermənistan tərəfindən yürüdülən etnik təmizləmə siyasətinə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, bu işğal nəticəsində Azərbaycanın 600-dən çox tarixi və memarlıq abidəsi və 40 min eksponat sərgilənən 22 muzeyi erməni silahlı qüvvələri tərəfindən tamamilə məhv edilib, 10 məscid yerlə-yeksan olunub. Ermənistan nəinki beynəlxalq hüquq normalarını, həm də tarixi ədaləti pozur: «BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, o dövrdən iyirmi ildən artıq vaxt ötmüşdür və bu qətnamələr icra olunmur. Burada biz beynəlxalq arenada qlobal təhlükəsizlik və qlobal konfiqurasiya ilə bağlı çox vacib məsələ ilə üzləşirik. Söhbət aparıcı beynəlxalq təşkilatların qərarları və qətnamələrinə məhəl qoyulmamasından və buna görə heç bir cəzanın tətbiq edilməməsindən gedir. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir və bu hərəkətinə görə heç bir təzyiqlə qarşılaşmır.Bu məsələ ciddi şəkildə nəzərdən keçirilməlidir. Biz Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra mexanizmlərini təkmilləşdirməliyik ki, ikili standartlara yol verilməsin».

Azərbaycan Prezidenti bildirib ki, islamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir: «Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməyəcəyik. Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik».

Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi böyük töhfədən bəhs edən Prezident İlham Əliyev bildirib ki, ölkəmizdə bütün dinlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Hökumətimiz, dövlətimiz nəinki məscidlərin tikintisinə, həmçinin kilsələrin - pravoslav və katolik kilsələrinin, sinaqoqların yenidən qurulmasına və inşasına sərmayə yatırır: «Azərbaycanda müxtəlif konfessiyaların nümayəndələri dini bayramları eyni masa arxasında qeyd edirlər. Buna görə də multikulturalizm bizim üçün bu gün müzakirə olunan, sadəcə, işləyib-işləməməsindən, həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq, bir ideya deyil. Multikulturalizm bizim adət-ənənəmizdir».

# Azərbaycanla ABŞ arasında uğurlu əməkdaşlıq mövcuddur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Bridcet Brink ABŞ və Azərbaycan prezidentlərinin ikitərəfli münasibətlərimizlə bağlı apardıqları müzakirələrdən sonra Prezident İlham Əliyevlə görüşmək imkanı əldə etmələrini yüksək dəyərləndirib. Əvvəllər də Azərbaycana səfər etdiyini bildirən qonaq paytaxtımızda gedən müsbət dəyişikliklərin onda dərin təəssürat yaratdığını diqqətə çatdırıb.

Dövlətimizin başçısı G20-nin Antalya toplantısında ABŞ Prezidenti Barak Obama ilə ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı fikir mübadiləsi apardıqları zaman ABŞ Prezidentinin 10 il bundan əvvəl senator kimi Azərbaycana səfərini xatırladığını məmnunluqla qeyd edib. Ölkələrimizin müxtəlif sahələrdə uzun illərdir ki, uğurla əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev enerji və regional təhlükəsizlik, iqtisadi inkişaf və digər sahələrdə əlaqələrimizin əhəmiyyətini xüsusi vurğulayıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Azərbaycanla ABŞ arasında əlaqələrin enerji, iqtisadi şaxələndirmə, ticarət, təhsil, kənd təsərrüfatı, birgə layihələr, terrorizmə qarşı mübarizə, insan haqları və demokratiya və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Təhsil sahəsində əlaqələrin perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının təhsil və elm naziri Dmitri Livanovu qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini vurğulayıb. Prezident İlham Əliyev Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında bu il artıq ilk buraxılışın olmasının və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının ölkəmizdə fəaliyyətə başlamasının önəmini qeyd edib, təhsil sahəsində əməkdaşlığımızın digər formalarının müəyyənləşdirilməsinin zəruriliyini bildirib.

Dmitri Livanov ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi işinə xüsusi diqqət göstərdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının uğurlu fəaliyyətini məmnunluqla qeyd edən rusiyalı qonaq Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının da Azərbaycanda nüfuz qazanacağına və peşəkar tibb işçilərinə olan tələbatın ödənilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğulayıb. Rusiyanın təhsil və elm naziri Azərbaycan İqtisad Universitetinin Dərbənd filialının fəaliyyətini təhsil sahəsində qarşılıqlı əməkdaşlığın nümunəsi kimi dəyərləndirib.

# Beşinci çağırış Milli Məclisinin ilk iclası keçirilib

*Noyabrın 24-də Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclası öz işinə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib və nitq söyləyib.*

İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açaraq bildirib ki, parlamentin daxili nizamnaməsinin 2-ci maddəsinə görə, yeni seçilmiş Milli Məclisin birinci iclasını ən yaşlı deputat aparır və bu missiya deputat Fəttah Heydərova nəsib olub.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib və iclasa sədrlik edən Fəttah Heydərov beşinci çağırış Milli Məclisin iclasını açıq elan edib. Yeni seçilən deputatların siyahısı oxunub və Milli Məclisin sədrinin seçilməsi üçün Hesablayıcı Komissiyanın tərkibinə daxil olacaq namizədlərin adları müəyyənləşib. Milli Məclisin daxili nizamnaməsinə əsasən, namizədlər bütövlükdə səsə qoyularaq təsdiq ediliblər və Milli Məclis sədrinin seçilməsi üçün gizli səsvermə keçirilib. Sonra Hesablayıcı Komissiyanın sədri İsa Həbibbəyli səsvermənin nəticələrini açıqlayıb. Beləliklə, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Oqtay Əsədov gizli səsvermə ilə yenidən Milli Məclisin sədri seçilib.

Növbəti səsvermə zamanı Ziyafət Əsgərov Milli Məclis sədrinin birinci müavini, Bahar Muradova və Valeh Ələsgərov sədrin müavinləri seçiliblər. Daha sonra Milli Məclis komitələrinin sədrlərinin adları müəyyən olub. Əli Hüseynli Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət Əsgərov müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Ziyad Səmədzadə iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Valeh Ələsgərov təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Eldar İbrahimov aqrar siyasət komitəsinin, Hadi Rəcəbli əmək və sosial siyasət komitəsinin, Arif Rəhimzadə regional məsələlər komitəsinin, İsa Həbibbəyli elm və təhsil komitəsinin, Rafael Hüseynov mədəniyyət komitəsinin, Bahar Muradova insan hüquqları komitəsinin, Səməd Seyidov beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Əhliman Əmiraslanov yeni yaradılan səhiyyə komitəsinin, Aqiyə Naxçıvanlı yeni yaradılan ailə, qadın və uşaq məsələləri komitəsinin, Siyavuş Novruzov yeni yaradılan ictimai birliklər və dini qurumlar komitəsinin, Fuad Muradov yeni yaradılan gənclər və idman komitəsinin sədrləri seçiliblər.

Bununla da beşinci çağırış Milli Məclisin birinci iş günü başa çatıb.

## BU NÖMRƏMİZDƏ

MOLDOVA VERGİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ VERGİLƏR NAZİRLİYİNDƏ OLUB 2

NATİQ ƏMİROV: «VERGİ DAXİLOLMALARI ÜZRƏ PROQNOZLAR TAM YERİNƏ YETİRİLİB» 2

VƏTƏNDAŞ MÜRACİƏTLƏRİNƏ BAXILMASI QAYDALARI TƏKMİLLƏŞDİRİLİR 4

REGİONLARA İNVESTİSİYA QOYULUŞLARI TƏŞVİQ OLUNUR 5

# Moldova vergi administrasiyasının rəhbəri Vergilər Nazirliyində olub



*Noyabr ayının 24-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyinin Azərbaycanda səfərdə olan nümayəndə heyətinin rəhbəri İon Prisekaru ilə görüşmüşdür.*

F.Məmmədov son illər ölkəmizdə bütün sahələrdə ciddi nailiyyətlər əldə olunduğu barədə məlumat verərək, bu uğurların əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş iqtisadi siyasətin dayandığını bildirmişdir. Azərbaycan və Moldova respublikaları arasında işgüzar münasibətlərin ildən-ilə inkişaf etdiyi, son illər bu ölkələrin vergi xidmətləri arasında əməkdaşlığın, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin müsbət nəticələr verdiyi, mövcud əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyi qeyd edilmiş, qonağa ölkəmizin vergi sistemində aparılan islahatlar və bu sahədə əldə olunan uğurlar haqqında ətraflı məlumat verilmişdir.

İon Prisekaru səmimi qəbula görə təşəkkürünü bildirmiş, öz ölkəsinin Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verdiyini diqqətə çatdırmışdır. Son illər yüksək iqtisadi artıma nail olan Azərbaycanla Moldovanın vergi xidmətləri arasında mövcud olan sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaq təcrübə mübadiləsinin daha da dərinləşdirilməsinin, mübadilə proqramlarının davam olunmasının zəruriliyini qeyd etmişdir. Moldova Baş Dövlət Vergi Müfəttişliyinin nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində nəzərdə tutulmuş işgüzar proqramın çox zəngin və maraqlı olduğunu bildirən İ.Prisekaru ikitərəfli münasibətləri daha da inkişaf etdirmək üçün müvafiq dövlət qurumlarının nümayəndələri arasında bu cür səfərlərin gələcəkdə də təşkil olunmasının vacibliyini vurğulamışdır.

Görüşdə vergilər sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilmişdir.

# Vergilər Nazirliyində görüş

Noyabr ayının 19-da Vergilər Nazirliyində Amerika-Azərbaycan Ticarət Palatasının təşəbbüsü ilə ölkəmizdə səfərdə olan ABŞ Ticarət Departamentinin və bu ölkəni təmsil edən şirkətlərin nümayəndələrinin ticarət missiyasının rəhbəri, ABŞ ticarət katibinin Avropa, Orta Şərq və Afrika regionu üzrə köməkçisinin müavini Maykl Lalli ilə görüş keçirilmişdir.

Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov qonaqlara ölkəmizin vergi sistemində aparılan islahatlar və bu sahədə əldə olunan uğurlar haqqında məlumat vermiş, Amerika-Azərbaycan Ticarət Palatası və digər ictimai təşkilatlar ilə ardıcıl keçirilən işgüzar görüşlərin əhəmiyyətini vurğulamışdır. Qeyd olunmuşdur ki, Azərbaycanda həyata keçirilən vergi siyasəti ölkədə biznes mühitinin təkmilləşdirilməsinə yardım edir və Vergilər Nazirliyi bu mühitin daha da yaxşılaşdırılması istiqamətində ictimai təşkilatlarla müxtəlif müzakirələrin keçirilməsinə böyük önəm verir. Vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması məqsədilə qanun layihələri hazırlanarkən ölkədə fəaliyyət göstərən yerli və xarici biznes strukturlarının, ictimai təşkilatların rəyləri nəzərə alınır.

Maykl Lalli Azərbaycanda olmasından məmnunluğunu ifadə edərək səmimi qəbula görə minnətdarlığını bildirmişdir. Qonaq Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsi istiqamətində texniki imkanların genişləndirilməsi, vergi sistemi və inzibatçılığının rəqabətqabiliyyətliliyinin təmin edilməsi, iqtisadiyyatın strukturunun formalaşması, innovasiyaların dəstəklənməsi siyasətində vergilərin stimullaşdırıcı rolunun artırılması ilə bağlı Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

# Azərbaycan vergilərin ödənilməsinin asanlığına görə MDB məkanında liderdir

Dünya Bankı və PwC auditor şirkətinin birgə tərtib etdiyi «Paying Taxes 2016» («Vergilərin ödənilməsi 2016») reytinqinə görə Azərbaycanın vergi sistemi ən mütərəqqi vergi sistemləri sırasındadır. Beynəlxalq təşkilatların birgə məruzəsinə əsasən, ölkəmiz dünyanın 189 iqtisadiyyatı arasında 34-cü yerdədir.

«Paying Taxes 2016» Dünya Bankı və PwC auditor şirkəti tərəfindən on ildir ki, hazırlanır. Hesabatın əsas indikatorları bunlardır: vergi yükünün ümumi həcmi (Total Tax Rate), vergilərin ödənilməsi üçün tələb olunan müddət (Time to comply) və vergilərin sayı (Number of payments).

Vergilərin ödənilməsinin asanlığına görə Azərbaycan MDV məkanında birincidir, sonrakı yerlərdə isə Gürcüstan (40-cı yer), Rusiya (47-ci yer), Belarus (63-cü yer), Ukrayna (107-ci yer), Özbəkistan (115-ci yer) kimi ölkələr gəlir. Hesabata əsasən, ölkəmiz reytinq siyahısında dünyanın inkişaf etmiş bir sıra aparıcı dövlətlərindən də öndədir: siyahıda İsveç 37-ci, ABŞ 53-cü, İspaniya 60-cı, Türkiyə 61-ci, Yunanıstan 66-cı, Almaniya 72-ci, Fransa 87-ci, Belçika 90-cı, İsrail 103-cü, Yaponiya 121-ci, Çexiya 122-ci, İtaliya isə 137-ci sıradadır.

# Vergi sazişləri üzrə tədbirlər planı müzakirə edilib

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Parisdə yerləşən qərargahında qurumun Vergi sazişləri üzrə növbəti illik iclası keçirilib. Tədbir G20-nin mandatı əsasında OECD tərəfindən həyata keçirilən «Vergi bazasının aşınması və mənfəətin köçürülməsi» (BEPS) layihəsi üzrə tədbirlər planının vergi sazişlərinə aid olan bəndləri ilə bağlı dərc olunmuş hesabatların və layihə çərçivəsində atılacaq növbəti addımların müzakirəsinə həsr olunmuşdur.

Tədbirdə Azərbaycan Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin rəisi Ülvi Yusifov vergi sazişlərindən sui-istifadə ilə bağlı hesabata həsr olunmuş sessiyada təqdimatla çıxış etmişdir.

# Natiq ƏMİROV: «Vergi daxilolmaları üzrə proqnozlar tam yerinə yetirilib»

*Xəbər verdiyimiz kimi, Vergilər Nazirliyində vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov 2015-ci ilin oktyabr ayının 12-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin iclasında verilmiş tapşırıqların icra vəziyyəti və cari ilin 10 ayı ərzində vergi orqanları tərəfindən görülmüş işlərlə bağlı mətbuat konfransı* Vergilər Nazirliyinin kollegiyasının qərarı ilə

Ölkənin aparıcı KİV nümayəndələrinin iştirak etdikləri mətbuat konfransında bildirilmişdir ki, ölkə başçısının qətiyyətlə həyata keçirdiyi dövlət quruculuğu prosesi 2015-ci ildə də uğurla davam etdirilmiş, sosial-iqtisadi sahədə bir sıra nailiyyətlər əldə olunmuşdur. Bu ilin 10 ayı ərzində Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 5 milyard 970 milyon 247 min manat vəsaitin toplanması təmin olunmuş, proqnoz tapşırığına 100,1 faiz əməl edilmişdir. Təkcə oktyabr ayında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 899 milyon 971 min manatdan artıq vəsait daxil olmuşdur. Ay ərzində dövlət büdcəsinə qeyri-neft sektoru üzrə 136,8 milyon manat əlavə vergi daxilolmaları təmin edilmişdir. Ümumilikdə isə cari ilin 10 ayında qeyri-neft sektoru üzrə vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 542,8 milyon manat çox olmuşdur.

Vergilər nazirinin 1-ci müavini qeyd etmişdir ki, yanvar-oktyabr ayları ərzində vergi daxilolmaları respublikanın bütün rayonları üzrə 100 faiz həcmində yerinə yetirilmişdir. 2015-ci ildən Sumqayıt, Mingəçevir, Abşeron, Şirvan, İmişli kimi şəhər və rayonlar öz büdcələrini tamamilə yerli gəlirlər hesabına təmin edirlər ki, bu da regionlarda qeyri-neft sektorunun inkişafı, vergi potensialının genişləndirilməsi və daxili gəlirlərin artması hesabına baş vermişdir. 2016-cı ildən isə Naftalan şəhəri də öz büdcəsini yerli gəlirlər hesabına təmin edən şəhərlər sırasına daxil olacaq.

Vergi orqanlarında həyata keçirilən islahatlara toxunan N.Əmirov cari ildə vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, dövlət büdcəsinin gəlirləri üzrə proqnoz göstəricilərinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə də kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsi üçün aidiyyəti üzrə müvafiq tədbirlərin görülməsi vergi orqanlarının qarşısında duran əsas vəzifələrdəndir. Kiçik dövriyyəyə malik sahibkarlıq subyektlərinə münasibətdə vergi orqanları daha çox tərəfdaş kimi çıxış etməyə çalışırlar. Ölkə başçısının Nazirlər Kabinetinin son iclasındakı çıxışı və orada verilmiş tapşırıqlara uyğun olaraq, Vergilər Nazirliyinin kollegiyasının qərarı ilə illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin keçirilməsi, - əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla, dayandırılmışdır.

Bildirilmişdir ki, vergi ödəyicilərinə göstərilən xidmətlərin səmərəliliyinin artırılması, kiçik və orta sahibkarlara göstərilən ünvanlı xidmətlərin genişləndirilməsi, regionlarda çalışan sahibkarlara vergi öhdəliklərinin yerinə yetirilməsində hüquqi, texniki və əməli xidmətlərin göstərilməsi, partnyorluq münasibətlərinin dərinləşdirilməsi, keçirilmiş səyyar vergi yoxlamaları və operativ nəzarət tədbirlərinin nəticələri üzrə aktların təhlil edilməsi, əsassız və nəticəsi olmayan yoxlamalarla bağlı müvafiq araşdırmaların aparılması və bu sahədə nöqsanlara yol vermiş vergi orqanı əməkdaşlarının məsuliyyət məsələsinə baxılması istiqamətində ciddi tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədilə vergitutma bazasının genişləndirilməsi, mövcud vergi potensialından daha səmərəli istifadə olunması üçün hərtərəfli iqtisadi təhlillər aparılaraq, aidiyyəti dövlət orqanlarına konkret təkliflər verilmişdir. Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər Milli Məclisdə müzakirəyə çıxarılaraq qəbul olunmuş, imzalanmaq üçün dövlət başçısına təqdim edilmişdir.

Vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyətinə toxunan N.Əmirov vurğulamışdır ki, son vaxtlar ölkə vətəndaşlarının ictimai fəallığı xeyli artmışdır. Əvvəlki illərdən fərqli olaraq, vergi ödəyiciləri nazirliyə və yerli vergi orqanlarına daha çox konkret məsələlərlə bağlı müraciət edirlər, vergidən yayınma halları barədə vergi orqanlarına məlumat verməklə öz vətəndaşlıq borclarını yerinə yetirirlər.

Sonda xüsusi olaraq vurğulanmışdır ki, 2015-ci ilin son 2 ayında da həyata keçirilən tədbirlər davam etdiriləcək və cənab Prezidentin vergi orqanları qarşısında qoyduğu tapşırıqlar tam şəkildə icra olunacaqdır.

•••••••••••••••••••••••••••••••••••••••••

***Sonra vergilər nazirinin birinci müavini Natiq Əmirov kütləvi informasiya vasitələri nümayəndələrinin suallarını cavablandırmışdır. Həmin sualları və cavabları kiçik ixtisarlarla təqdim edirik:***

**«İnterfax» İnformasiya Agentliyi:**

***- 2015-ci ildə neft konsorsiumları tərəfindən nə qədər mənfəət vergisi ödənilib?***

- Konsorsiumlar üzrə mənfəət vergisi proqnozu cari il üçün 800 milyon manat nəzərdə tutulmuşdu, amma onlar 696 mln. manat vəsait ödədilər. Oktyabr ayı neft konsorsiumları üçün dövlət büdcəsinə sonuncu ödəniş müddəti idi. Ödənişlər 104 milyon manat az oldu ki, bu da neftin qiymətində kəskin azalmalarla bağlıdır. Buna baxmayaraq, ölkədə həyata keçirilən uğurlu iqtisadi diversifikasiya siyasəti və iqtisadiyyatın bütün sahələrində əldə olunan artım dinamikasının saxlanılması dövlət büdcəsinə mənfi təsirin qarşısının alınmasına imkan verdi, dövlət büdcəsinə qeyri-neft sektoru üzrə 136 milyon manat əlavə vergi daxil oldu. Bunun nəticəsində dövlət büdcəsinin vergi daxilolmaları üzrə gəlirləri tam yerinə yetirildi.

**«İnterfax» İnformasiya Agentliyi:**

***- Nazirlikdə struktur dəyişiklikləri hansı istiqamətdə gedəcək və bu dəyişikliklər ixtisarlara səbəb ola bilərmi?***

- Vergilər Nazirliyi dinamik bir qurumdur. Vergi qanunvericiliyi, vergi münasibətləri, iqtisadi münasibətlər dəyişdikcə Vergilər Nazirliyi də öz strukturlarını bu çağırışlara, dəyişikliklərə uyğunlaşdırmağa çalışır. Struktur dəyişikliklərinin aparılmasında məqsəd 2016-cı ilin büdcə-vergi siyasətinin icrasını təmin etməkdir. Vergilər Nazirliyinin qeyri-neft sektoru üzrə daxilolmalarla bağlı proqnozu 4 milyard 812 milyon manatdır. Bu proqnoza vergi ödəyiciləri ilə daha həssas və qarşılıqlı işləməklə əməl etmək mümkündür. Vergi orqanları 2014-cü ildən vergi ödəyiciləri ilə münasibətlərini partnyorluq sazişi əsasında qurmağa başlamışdır. Yoxlamaların sayının azaldılması istiqamətində həyata keçirilən addımlar vergilərin yığılmasına yeni yanaşmalar tələb edir. Ona görə də biz öz strukturlarımızı bu çağırışlara uyğunlaşdırmağa çalışırıq.

Nazirlikdə ştat tərkibinin azaldılması nəzərdə tutulmur. Çünki qonşu ölkələrin və Avropa dövlətlərinin vergi administrasiyalarının ştat sayı ilə müqayisədə Azərbaycanın Vergilər Nazirliyinin ştat sayı xeyli azdır. Say azlığına baxmayaraq, son illər İKT-nin geniş tətbiqi digər ölkələrlə müqayisədə daha yaxşı nəticələr əldə etməyə imkan verib.

**«İnterfax» İnformasiya Agentliyi:**

***- Prezident İlham Əliyev FATKA ilə bağlı qanunu təsdiq etmişdir. Bu istiqamətdə növbəti addımlar nədən ibarət olacaq?***

- FATKA ilə bağlı saziş ratifikasiya olunub. Növbəti mərhələdə ABŞ Daxili Gəlirlər Xidməti ilə Azərbaycan Vergilər Nazirliyi arasında daha bir saziş imzalanacaq və burada məlumat mübadiləsinin texniki detalları öz əksini tapacaq. Sonra qarşılıqlı fəaliyyət göstəriləcək: ABŞ-ın Azərbaycanda, Azərbaycanın ABŞ-da gəlir əldə edən vergi ödəyicilərinə aid məlumatlar mübadilə olunacaq.

**Davamı 3-cü səhifədə**

# Natiq ƏMİROV: «Vergi daxilolmaları üzrə proqnozlar tam yerinə yetirilib»

Əvvəli 2-ci səhifədə



**Fins.az:**

***- Prezident İlham Əliyev vergi orqanları qarşısında vergi bazasını artırmaq tapşırığı qoyub. Vergiyə cəlb edilmə üçün hansı sahələr üzrə imkanlar genişdir?***

- Azərbaycanda vergi bazasının genişləndirilməsi üçün imkanlar bir çox sahələri əhatə edir və bu imkanlar, əsasən, iqtisadiyyatın ümumi artımı ilə bağlıdır. Cənab Prezidentin qeyd etdiyi kimi, heç də bütün qurumlar, eləcə də vergi orqanları öz işlərini şəffaf formada görmür və bütün sahibkarlar öz vergi öhdəliklərini dəqiq yerinə yetirmirlər. Vergi orqanları fəaliyyətlərini şəffaflaşdırmaqla, qanunvericilikdə nəzərdə tutulan imkanlardan istifadə etməklə bu sahədə ciddi müsbət dəyişikliklərə nail olmaq niyyətindəyik. Vergi Məcəlləsinə dəyişikliklər dövlət başçısı tərəfindən təsdiq edildikdən sonra sahibkarlara əlavə stimul verəcək. Sahibkarlar üçün yaradılan şərait onlara öz gəlirlərini daha düzgün bəyan etməyə və vergi gəlirlərini artırmağa imkan verəcək.

**Azad Azərbaycan TV:**

***- 30 mindən çox iş yerinin bağlanması dolayısı ilə vergi mənbələrinin bağlanması və vergi ödəyicilərinin sayının azalması demək deyilmi? Bu, vergi daxilolmalarında proqnozun yerinə yetirilməsində problem yarada bilərmi?***

- Biz bu məsələnin araşdırılması istiqamətində əhəmiyyətli işlər aparırıq. Obyektlərin bağlanması və açılması çox dinamik prosesdir. Hər il minlərlə obyekt bağlanır, sahibini dəyişir və ya icarəyə verilir. 2015-ci ildə də bu sahədə müsbət dinamika müşahidə olunub. Yeni açılan obyektlərin sayı bağlananların sayını üstələyir. Bu ilin ilk 9 ayı ərzində 67 min yeni iş yeri açılıb. Bağlanan iş yerləri hər hansı sahibkarın fəaliyyətinə müdaxilə olunması, çətinlik yaradılması nəticəsində baş veribsə, bu, araşdırılmalıdır. Cənab Prezidentin vergi orqanlarına tapşırığına uyğun olaraq, hər bir obyektin bağlanması barədə İqtisadiyyat və Sənaye Nazirliyinə məlumat verilir, həmin vergi ödəyicisi ilə əlaqə saxlanılır. Əgər obyekt doğrudan da müdaxilə əsasında bağlanırsa, bu məsələ qanunlar çərçivəsində aydınlaşdırılaraq öz həllini tapır.

**ANS TV:**

***- Əmlak satışı ilə bağlı vergi yığımlarında bəzi anlaşılmazlıqlar var, bu barədə nə deyə bilərsiniz? Şou-biznes nümayəndələrindən verginin yığılması necə tənzimlənəcək?***

- Əmlak vergisində anlaşılmazlıqları artıq həll etmişik. Üç ay davam edən müzakirələrdən sonra əmlak vergisi ilə bağlı Vergi Məcəlləsində müvafiq dəyişikliklər edildi. İstər yeni tikililərdəki, istərsə də köhnə binalardakı mənzillərin alqı-satqısında tam şəffaf mexanizm tətbiq olunur. Artıq vətəndaşlar evin satışından əvvəl nə qədər vergi ödəyəcəkləri ilə bağlı bütün suallarına cavab tapa biləcəklər. Vətəndaşların xeyrinə öz həllini tapan bu məsələ ilə bağlı qanun Milli Məclisdə qəbul edilib və cənab Prezident tərəfindən imzalandıqdan sonra 2016-cı il yanvarın 1-dən qüvvəyə minəcək.

Şou-biznesə gəldikdə, bu sahənin təqribən 3000-ə yaxın təmsilçisi var. Vergi orqanlarına ictimai dəstək olmadan şou-biznes nümayəndələrini vergiyə cəlb etmək çətindir. Bizim cəmiyyətdə insanlar vergi orqanlarına məlumat verməkdən çəkinirlər, verilən sualları təhqir kimi qəbul edirlər. Çoxları «toyda oxumuş müğənniyə nə qədər pul vermisən?» sualına cavab vermək istəmir. Bu, bir az da mentalitet məsələsidir. Vergi mədəniyyətinin formalaşması istiqamətində görüləsi işlərimiz də çoxdur. İllər keçdikcə bu məsələlər öz müsbət həllini tapacaq və insanlarımız maariflənərək şou-biznes nümayəndələrinə verilən pullardan dövlət büdcəsinə vergi ödəmək lazım olduğunu qəbul edəcəklər. Gəlirlərin bəyan olunması istiqamətində şəffaflıq artdıqca, bu sahədə də şəffaflıq təmin ediləcək.

Artıq müəyyən addımlar atılıb. Konsert salonlarında keçirilən konsertlərə bilet satışı vasitəsilə xarici müğənnilərin, şou-biznes nümayəndələrinin gəlirlərindən vergi yığımı şəffafdır. Buna nəzarət edə bilirik. Toylar isə ictimai məsələdir və qarşılıqlı prosesdir. Bu sahədə irəliləyişə nail olmaq üçün bizə ictimai dəstək lazımdır.

**Lider TV:**

***- Vergi sistemində «E-cinayət işi» konsepsiyasının yaradılması nəzərdə tutulur. Bu strategiyanın əsas istiqamətləri nədən ibarətdir?***

- «E-cinayət işi» konsepsiyası cinayət təqibinin elektron şəkildə izlənilməsinə şərait yaradacaq, ilk növbədə cinayətlərin təqibi ilə məşğul olan müstəntiqlərin peşəkar şəxslərin fəaliyyətlərinə dair apardıqları işlərin elektron formada icrasını təmin edəcək. Bu, əsasən, Baş Prokurorluğun tövsiyələri və rəhbərliyi ilə həyata keçirilən, Cinayət Məcəlləsinin tələblərinə uyğun olan bir prosesdir.

**Lider TV:**

***- Bəzi xidmət sahələrinin (dərzilik, repetitorluq və s.) vergiyə cəlb olunmasında hansı addımların atılması nəzərdə tutulur? Bunun mexanizmi necə olacaq?***

- Vergilər Nazirliyi müxtəlif xidmət sahələrində və fəaliyyət növlərində vergiqoymaya fərdi yanaşmanın tətbiqi ilə bağlı layihə üzərində 3 ildir işləyir. Araşdırmalar göstərir ki, bu sahələrdə xeyli vergidən yayınma halları var. Dayələr, repetitorlar və digər sahələrdə gəlir və xərclərin uçotundan yaranan vergiqoyma problemləri mövcuddur. Hazırda əsas təklif və variant ondan ibarətdir ki, bu məsələ ilə bağlı konkret bir rəqəmə uyğun vergi tətbiq olunmaqla onların dəqiq uçotunu aparmaq mümkündür. Bu təkliflə bağlı müzakirələr aparılır. Lakin bu sahənin nümayəndələri bəyannamə, gəlir və xərc kimi məsələlərə hələ hazır deyillər. Düşünürük ki, onlara da taksi sürücülərinə tətbiq olunan «fərqlənmə nişanı»na oxşar sistem tətbiq edilməlidir.

**APA TV:**

***- E-xidmətlərin genişləndirilməsi istiqamətində hər hansı bir yenilik nəzərdə tutulurmu?***

- Artıq Vergilər Nazirliyinin bütün xidmətləri elektronlaşdırılıb.Vergi orqanlarında səyyar vergi yoxlamaları istisna olmaqla, bütün xidmətlərin elektron şəkildə göstərilməsi mümkündür. Öz mühasibat işlərini elektron formada aparan şirkətlərdə səyyar yoxlamaları biz elektron formada həyata keçirə bilirik. Hazırda gələn il üçün ən böyük dəyişiklik üzərində işləyirik və elektron qaimə-fakturaların tətbiqinə nail olmağa çalışırıq. 2008-ci ildən ƏDV hesab-fakturaları Vergilər Nazirliyinin mərkəzi bazası vasitəsilə elektron şəkildə həyata keçirilir. 2016-cı ildə isə bütün fakturaların elektronlaşdırılmasına nail olmaq niyyətindəyik. Bu, iqtisadi sahədə, eləcə də vergi orqanlarının fəaliyyətində həm şəffaflığı əhəmiyyətli dərəcədə təmin edəcək, həm də qarşılıqlı münasibətlərdə anlaşılmazlığın aradan qaldırılmasına şərait yaradacaq.

**«Gun.az» İnformasiya Agentliyi:**

***- Vergilər Nazirliyi elektron ticarətin vergiyə cəlb edilməsinə necə yanaşır, bununla bağlı hansısa layihə hazırlanırmı?***

- İnsanlar, adətən, hər hansı yeniliyə başlayanda bunu çətinlik kimi qiymətləndirirlər. Vergilər Nazirliyi beynəlxalq qurumların texniki yardımından kifayət qədər faydalanaraq hazırladığı e-ticarət haqqında qanun layihəsini ötən il hökumətə təqdim edib. Layihə ətrafında müzakirələr aparılıb. Maliyyə Nazirliyi ilə bəzi məsələlərdə hələ tam razılığa gələ bilməmişik. Qanun layihəsi yenidən hazırlanıb və ötən ay hökumətə təqdim edilib. Gələn il layihə müzakirəyə çıxarıla və qəbul oluna bilər. Bununla da həmin sahədə boşluqlar nizamlanacaq.

Bütün sahələr kimi, e-ticarətə də vergi tətbiq edilməlidir. Ümumiyyətlə, dünya vergiqoyma təcrübəsi göstərir ki, vergidən azadolma hər hansı sahənin xüsusi inkişafını təmin etməyib. Azadolmalar inkişafın təmini amili kimi çıxış edə bilməz. Ayrı-ayrı hallarda, təbii ki, azadolmalar müəyyən dövr üçün müxtəlif təşviqedici faktor olaraq taktiki cəhətdən uğur qazanmaqda müsbət rol oynayır, amma uzunmüddətli dövr üçün inkişafı təmin etmir. İnkişafı təmin etmək üçün şəffaf qanuni şərait yaradılmalıdır. Azərbaycanda bu şərait mövcuddur, bəzi çatışmazlıqlar var ki, onlar da qanun layihəsində nəzərə alınacaq.

Vergiyə sahibkarın gəliri cəlb olunur və gəlirin hansı şəkildə əldə edilməsindən asılı olmayaraq, gəlirlərdən vergi tutulur. E-ticarətdən yaranan gəlirlər dünya təcrübəsində ən çox bəyan olunan gəlirlərdir. Sahibkarlarla görüşlərimizdə də e-ticarət əməliyyatları üzrə əldə olunan gəlirlərdən vergi ödənilməsi onlar tərəfindən bəyan edilib. Sadəcə, qanunvericiliklə onlara müəyyən şərait yaradılmalıdır. Qanun layihəsi hazırlanıb və qəbul olunduqdan sonra bu sahənin inkişafına təkan veriləcək. Bundan başqa, biz nağdsız ödənişlərin inkişafına dair də qanun layihəsi hazırlamışıq. Bu sahəyə də vergi güzəştlərinin tətbiq olunması nəzərdə tutulur. Hər iki qanun layihəsinin qəbul olunması nəticəsində insanlar əldə etdikləri gəlirləri bəyan etməyə meyilli olacaqlar.

**«Gun.az» İnformasiya Agentliyi:**

***- Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərdən biri alkoqollu içkilərin və tütün məmulatlarının alqı-satqısının nağdsız qaydada aparılmasıdır. Bu sahədə əsas tədbirlər nədən ibarət olacaq?***

- Bəzi KİV-lərdə tütün məmulatlarının satışının nağdsız qaydada aparılması barədə məlumatlar dərc olunur. Qanunda belə bir müddəa və ya tələb yoxdur. Həmin məhsullar əvvəllər necə satılırdısa, o qaydada da satılacaq. Çünki bu malların satışı həm də bir növ sosial mahiyyət daşıyır, çoxlu sayda insan bundan istifadə edir.

Alkoqollu içkilərə gəlincə, dünya təcrübəsinə əsasən, həmin mallar ixtisaslaşdırılmış mağazalarda satılır və satışı mümkün qədər məhdudlaşdırılır. Azərbaycanda və ümumilikdə dünya ölkələrində həmin məhsulların satışı üzərində müxtəlif nəzarət mexanizmləri barədə təhlillər aparılsa da, bunun ideal variantı tapılmayıb. Bununla belə, alkoqolli içkilərin satışına müxtəlif nəzarət tədbirləri həyata keçirilir. Hazırda respublika üzrə 84 min ədəd POS-terminal quraşdırılıb və bu, bütün rayon və kəndləri əhatə edir. İstənilən mağaza və satış yerlərini POS-terminalla təmin etmək üçün kifayət qədər ehtiyatımız var. Ölkədə 6 milyona yaxın şəxsin plastik kartı var ki, bu da bizə alkoqollu içkilərin nağdsız qaydada satışını həyata keçirməyə tam imkan verir. Düşünürük ki, bu sahədə əhəmiyyətli nəticələrə nail ola biləcəyik. Çünki bu malların nağd satışı ilə əlaqədar çox ciddi inzibati cərimələr nəzərdə tutulub, həmçinin Cinayət Məcəlləsinin müvafiq maddələrində məsuliyyət müəyyən olunub.

**«Marja» İnformasiya Agentliyi:**

***- Vergi Məcəlləsinə son dəyişikliklər nəticəsində gələn il büdcəyə nə qədər əlavə vəsaitin daxil olacağı proqnozlaşdırılır?***

- İlkin hesablamalarımıza görə, dəyişikliklər və həyata keçiriləcək tədbirlər nəticəsində 2016-cı ildə əlavə olaraq 316 milyon manat vergi bazası yaranacaq və onun toplanmasını təmin etməyə çalışacağıq.

**Fins.az:**

***- Vergi Məcəlləsinə yeni dəyişikliklərdən biri mənzil tikintisinin vergiyə cəlb olunması mexanizminin təkmilləşdirilməsi ilə bağlıdır. Bu, həmin sahəyə hansı təsirləri göstərəcək?***

- Vergi Məcəlləsinə bu dəyişikliyi etməkdə əsas məqsəd 2016-cı ildə iqtisadiyyatın bəzi sahələrində enmə templərinin nəzərə alınmasıdır. Proqnozlara görə, 2015-ci və 2016-cı illərdə mənzil satışında mənfi tendensiyalar gözlənilir. Hökumət bu narahatlığı nəzərə alaraq, həmin sahədə vergi məsələsinə yenidən baxdı və tikinti sektorunun inkişafına stimul vermək məqsədilə bu addımı atdı. Bina tikintisi iqtisadiyyatın lokomotivi rolunda çıxış edir. Bu sahə, sadəcə, inşaat hadisəsi kimi başa düşülməməlidir. Yəni kimsə mənzil alanda onun təmirinə və avadanlıqlarla təmin olunmasına da vəsait qoyur. Dəyişiklik vergiqoymanı şəffaflaşdırmaq, vergi ödəyicilərinə alternativlər yaratmaq məqsədi daşıyır. Yəni artıq gələn il bina tikintisi ilə məşğul olan vergi ödəyicisi öz vergilərini həm proqnozlaşdıra, həm də alternativ metodla vergi ödəyə biləcək.

**«Marja» İnformasiya Agentliyi:**

***- 2015-ci ildə dövlət büdcəsinə qeyri-neft sektoru üzrə nə qədər vergi daxilolmaları proqnozlaşdırılır?***

- 2015-ci ildə qeyri-neft-qaz sektoru üzrə proqnoz 4 milyard 812 mln. manatdır, indiyə qədər, yəni 10 ay üzrə 4 mlrd. 63,4 mln. manatın dövlət büdcəsinə ödənilməsi təmin edilib. Bu, 2014-cü illə müqayisədə 542,8 mln. manat çoxdur.

*Hazırladılar:*
**Elbrus CƏFƏRLİ**
**Fəxriyyə İKRAMQIZI**

---

# Əli Həsənov: «Yalan məlumatlar yayan, cəmiyyətdə çaşqınlıq yaradan KİV-lər və jurnalistlər haqqında müvafiq ölçü götürüləcək»

*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun son zamanlar kütləvi informasiya vasitələrində sui-istifadə hallarının artması faktı ilə bağlı AZƏRTAC-a müsahibəsi*

- Azərbaycan Respublikasında söz və məlumat azadlığı, hər kəsin, o cümlədən kütləvi informasiya vasitələrinin, jurnalistlərin sərbəst şəkildə informasiya əldə etmək, hazırlamaq və yaymaq hüququ tam təmin edilib. KİV-lər Azərbaycanın daxili və xarici siyasəti, cəmiyyət həyatının müxtəlif sahələri, habelə dünyada baş verən mühüm hadisələr haqqında çoxsaylı məlumatlar, müxtəlif şərh və təhlillər hazırlayır və ictimai rəyə təqdim edirlər. Söz və məlumat azadlığı Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun mühüm tərkib hissəsidir və qarşıdan gələn dövrdə də Azərbaycan dövləti KİV-lərin müstəqilliyinin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

Bununla yanaşı, təəssüflə qeyd etmək lazım gəlir ki, KİV-lərin sərbəst fəaliyyəti üçün yaradılmış əlverişli şəraitdən son zamanlar sui-istifadə halları artıb. Xüsusilə internet media orqanlarında müxtəlif dövlət strukturları, onların rəhbərləri və əməkdaşları haqqında həqiqətə uyğun olmayan, əsassız, qərəzli, hətta şantaj xarakterli çoxsaylı məlumatlar yayılır. Vəzifəli şəxslərin guya işdən «kənarlaşdırılması», rəhbərlik etdikləri qurumlarda «yoxlamalar», evlərində «axtarışlar» aparılması, məmurların «həbsi», vəzifələrindən uzaqlaşdırılmış bəzi dövlət qurumlarının rəhbərləri ilə «əməkdaşlığı» və s. bu tipli qərəzli məlumatlar məqsədli şəkildə dövriyyəyə buraxılır. Əminliklə demək olar ki, belə məlumatlar yayan KİV-lər bununla öz tirajlarını artırmağa və mənfəət əldə etməyə çalışırlar. Diqqətə çatdırıram ki, bu tipli fəaliyyət qanuna ziddir və birbaşa hüquqi məsuliyyət doğurur.

Təəssüf ki, bəzi hallarda aparıcı KİV-lər də belə dezinformasiyaları tirajlayaraq öz oxucularını çaşdırırlar. Sosial şəbəkələrdə və məqsədli şəkildə fəaliyyət göstərən internet saytlarında yerləşdirilmiş yalan məlumatlar yoxlanılmadan, həqiqiliyi araşdırılmadan həmin ciddi media orqanlarının səhifələrinə yerləşdirilir.

Nəzərə almaq lazımdır ki, mövcud hal dövlət orqanlarının nüfuzuna xələl gətirir, onların iş rejiminin pozulmasına, cəmiyyətdə çaşqınlıq yaranmasına səbəb olur və ümumilikdə, Azərbaycan dövlətinin imicinə mənfi təsir göstərir.

Hesab edirik ki, Azərbaycan KİV-ləri, jurnalistlər daim məsuliyyətli olmalı, mövcud qanunvericiliyin tələblərinə əməl etməli, KİV-lərin sərbəst fəaliyyəti üçün yaradılmış əlverişli şəraitdən sui-istifadə hallarına yol verməməlidirlər. Jurnalist birlikləri, xüsusilə Mətbuat Şurası hazırda müşahidə olunan mənfi meyillərin aradan qaldırılması istiqamətində əməli tədbirlər görməlidirlər. Əks təqdirdə qanuna zidd fəaliyyət göstərən, yalan məlumatlar yayan, cəmiyyətdə çaşqınlıq yaradan KİV-lər və jurnalistlər haqqında müvafiq hüquqi ölçü götürüləcək.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Nəqliyyat vasitəsinin satılması

***1 ildən artıqdır ki, mülkiyyətimdə olan və şəxsi məqsədlər üçün istifadə etdiyim avtomobili satmaq istəyirəm. Bu, sahibkarlıq fəaliyyəti hesab edilirmi?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (VM) 13.2.37-ci maddəsinə əsasən, sahibkarlıq fəaliyyəti - şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətidir.

Rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün VM ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir (VM, maddə 96.1). Rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirlərdən ibarətdir (VM, maddə 97). Sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlər muzdlu işə aid olmayan fəaliyyətdən gəlirlərə aid edilir (VM, maddə 99.1). Sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir, sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanmasına razılıq verilməsinə görə alınan gəlir, əsas vəsaitlərin təqdim edilməsindən alınan və VM-in 114.7-ci maddəsinə uyğun olaraq gəlirə daxil edilən məbləğlər, VM-in 141-ci maddəsinə uyğun olaraq gəlirdən çıxılan kompensasiya edilən məbləğlərdən və ya ehtiyatların azalmasından gəlir sahibkarlıq fəaliyyətindən gəlirə aiddir (VM, maddə 99.2).

VM-in 13.2.10-cu maddəsinə əsasən, mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, o cümlədən (lakin bunlarla məhdudlaşdırılmayan) malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əməkhaqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsi malların təqdim edilməsi hesab edilir.

Əlavə olaraq bildiririk ki, sahibkarlıq fəaliyyəti üzrə gəlir vergisinin dərəcəsi VM-in 101-ci maddəsi ilə tənzimlənir.

VM-in 15.1.3-cü maddəsi vergi ödəyicilərinin VM ilə müəyyən edilmiş hallarda və qaydada vergi güzəştlərindən istifadə hüququnu müəyyən edir. Gəlir vergisi üzrə azadolmalar VM-in 102-ci maddəsi ilə tənzimlənir. VM-in 102.1.7-ci maddəsinə əsasən, vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə olunan və ya istifadə edilmiş əmlakdan başqa, daşınan maddi əmlakın təqdim edilməsindən gəlirlər gəlir vergisindən azaddır.

Sorğunuzda qeyd edilən hallar sahibkarlıq fəaliyyətinin anlayışı ilə əhatə olunmadığı üçün istifadənizdə və mülkiyyətinizdə olan nəqliyyat vasitəsinin təqdim edilməsi sahibkarlıq fəaliyyəti hesab olunmur.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Rövşən Süleyman oğlu Əliyevin mürəkkəb tərcümeyi-halı var. Qanunlara məhəl qoymadan daim özü-özünə ciddi problemlər yaradan bu şəxs dəfələrlə iş qurmaq, biznes yaratmaq təşəbbüsündə olsa da bu niyyəti baş tutmayıb, istintaqa cəlb olunub, məhbus həyatı yaşayıb. 10 ilə yaxın dövr ərzində müxtəlif fəaliyyət sahələri üzrə ticarət və xidmət müəssisələri yaradıb və törətdiyi qanunsuzluqlara, o cümlədən vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmağa görə 6 dəfə məhkum olunub.

Sonuncu dəfə cəzaçəkmə müəssisəsindən azadlığa buraxıldıqdan sonra ixtisası üzrə iş tapıb işləyəcəyinə, biznesə birdəfəlik son qoyacağına söz verib. Amma öz dediyinə görə, yaxınlarının təhriki ilə yenidən biznesə qayıtmağa qərar verib və bir neçə müəssisə təsis edib: «Aznavi Group», «Aznavi Holdinq», «MMM İnvest» və «İnterservis-İS» MMC. Lakin R.Əliyev bu dəfə də köhnə xasiyyətini yerə qoymayıb və rəhbəri olduğu müəssisələrin vergi bəyannamələrini saxtalaşdırıb, bir çox hallarda isə vergi orqanlarına, ümumiyyətlə, bəyannamə təqdim etməyib.

Vergi orqanlarının apardıqları araşdırmalar zamanı ona məxsus müəssisələrdə bir neçə vergi növü üzrə dövlət büdcəsinə ödənilməkdən yayındırılan vergilərin həcminin 736.110,94 manat təşkil etdiyi məlum olub. Üzdəniraq sahibkarın bu hərəkətlərinə Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.6, 16.1.7, 53.1, 71.1, 71.2, 72, 77.3, 78.1, 82, 83.4, 85.2, 103-105, 149.2, 150, 152.1, 153-154, 159.1, 161, 166-168, 173, 180, 219.1 və 221-ci maddələrinin tələblərinin pozulması kimi hüquqi qiymət verilib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən toplanmış materiallar əsasında R.Əliyevin bir neçə fakt üzrə CM-in 213.1 və 213.2.2-ci maddələri ilə təqsirləndirilməsinə dair cinayət işləri açılıb və barəsində həbs qətimkan tədbiri seçilib. Aparılan istintaq hərəkətləri, şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibatlıq sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında R.Əliyevin törətdiyi cinayət əməlləri tam sübuta yetirilib. Təqsirləndirilən şəxs qismində dindirilən MMC rəhbəri ona qarşı elan olunmuş ittihamlarla özünü təqsirli bilərək vergi ödənişlərindən mənimsədiyi vəsaitləri şəxsi məqsədləri üçün istifadə etdiyini etiraf edib. Nəticə isə ağır olub: Yasamal Rayon Məhkəməsinin hökmü ilə R.Əliyev 3 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında rəhbər və maddi məsul vəzifə tutma hüququndan məhrum olunmaqla 6 il müddətinə azadlıqdan məhrumetmə cəzasına layiq görülüb.

**ELBRUS**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2015-ci ilin yanvar-oktyabr aylarında:**

- Azərbaycanda **45,9 milyard** manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə **3,3%** çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur.
- ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi **2,1%** artaraq **4825,3** manata çatmışdır.
- Əhalinin gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən nominal ifadədə **5,7%** artaraq **33,5 milyard** manat olmuşdur.
- Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən **22,0 milyard** manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə **2,2%** çox sənaye məhsulu istehsal edilmişdir.

# Vətəndaş müraciətlərinə baxılması qaydaları təkmilləşdirilir

*Ölkə başçısı «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanununun tətbiqi barədə fərman imzalayıb. Sənədə görə, Nazirlər Kabineti üç ay müddətində ölkə qanunvericiliyinin və normativ-hüquqi aktların bu qanuna uyğunlaşdırılması ilə bağlı təkliflər hazırlamalı, eləcə də qanunun pozulmasına görə məsuliyyət müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.*

Qanun vətəndaşların müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir. Qanuna görə, vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılmalıdır. Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə daxil olduğu gündən ən geci 15 iş günü ərzində baxılmalıdır. Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda, müraciətin daxil olduğu andan 24 saat keçənədək baxılmalıdır.

Qanuna görə, müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri müəyyən edilmiş qaydada verilən yazılı müraciətləri mütləq qəbul etməli, qeydiyyata almalı və onlara baxılmasını təmin etməlidirlər. Verilən müraciəti qəbul etməkdən imtina qadağandır. Müraciətə baxan subyektlərin müraciətlərin qəbul edilməsi və cavablandırılması işini elektron formada həyata keçirmək hüququ var. Müraciət edən şəxsin tələbi ilə ona müraciətin qeydiyyat nömrəsi, tarixi və onun icraçısına dair məlumat bildirilməlidir. Müraciətdə göstərilən məsələyə baxıldıqda və bu barədə vətəndaşa əsaslandırılmış cavab verildikdə müraciət baxılmış hesab olunur. Elektron müraciətlərə müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən müraciət edənin göstərdiyi elektron ünvan vasitəsilə elektron qaydada və ya müraciət edənin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı cavab verilməklə baxılmalıdır. Elektron müraciətdə müraciət edənin elektron ünvanı göstərilmədikdə müraciətə poçt vasitəsilə yazılı cavab verilməlidir. Müraciətin baxılmamış saxlanılması, qismən təmin edilməsi və ya rədd edilməsi barədə qərar qəbul olunduqda müraciət edənə cavab məktubunda həmin qərardan şikayət verilməsi qaydası izah edilməlidir.

Vətəndaşın müraciətində göstərilən məsələlər «Dövlət sirri haqqında» Qanuna uyğun olaraq, dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə, müraciətin bu səbəbdən mahiyyəti üzrə cavablandırılmasının mümkünsüzlüyü barədə müraciət edənə məlumat verilməlidir. Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin etməlidir. Xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır. Əlavə materialların və məlumatların əldə edilməsi tələb olunduqda dövlət orqanı rəhbərinin bu müddəti 10 iş günü uzatmaq hüququ vardır.

Qanuna görə, dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətinin və ya işinin tənqid edilməsi ilə bağlı, yaxud vətəndaşın və ya digər şəxslərin hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədilə edilən müraciətə görə vətəndaşı təqib etmək qadağandır.

**A.NƏBİYEVA**

# Elektron ticarətin dövriyyəsi artır

## *Bu sahədə təkmil vergi nəzarəti mexanizminin yaradılması nəzərdə tutulur*

İnternet vasitəsilə elektron ticarətin həyata keçirilməsi dünyada gedən qloballaşma prosesinin tərkib hissələrindəndir. Sahibkarlıq fəaliyyəti sahəsində bu istiqamətdə baş verən yeniliklər biznesin elektron qaydada aparılmasında və ya elektron ticarətin tətbiqində öz əksini tapır. Dünya miqyasında elektron ticarətin meydana çıxması yeni yaranmış münasibətlərin tənzimlənməsinə, o cümlədən texniki, iqtisadi, maliyyə, vergi və hüquq normalarının uzlaşdırılmasına zərurət yaradır. Son illərdə ABŞ, Kanada, Avstraliya və Avropa ölkələrində elektron biznesi tənzimləyən qanunvericilik aktları qəbul edilir.




Azərbaycanda da elektron ticarətin həcmində hər il artım müşahidə olunur. Bu ticarət növünə üstünlük verənlərin təxminən 90 faizini hüquqi, 10 faizini isə fiziki şəxslər təşkil edir. Dövlət Statistika Komitəsinin (DSK) açıqladığı son statistik göstəricilər də Azərbaycanda həyata keçirilən elektron ticarət dövriyyəsinin həcminin artdığını göstərir. Bu ilin on ayında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 1,9 dəfə artaraq 10,5 milyon manat təşkil edib. Elektron ticarət vasitəsilə əhalinin sifariş verdiyi istehlak məhsullarının 91,9 faizi hüquqi şəxslərdən, 8,1 faizi isə fərdi sahibkarlardan alınıb. Elektron ticarət dövriyyəsinin 96,3 faizi qeyri-ərzaq məhsullarının payına düşüb.

Ölkəmizdə sahibkarlıq fəaliyyətinin bütün sahələrinə, o cümlədən elektron ticarətə vergi nəzarəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada aparılır. Lakin bu sahədə vergi nəzarətinin təkmilləşdirilməsi vacib məsələlərdən biri olaraq qalır. Biznesin elektron qaydada aparılması zamanı meydana çıxan hüquqi və iqtisadi münasibətləri tənzimləyən bir sıra qanunvericilik aktlarının qüvvədə olmasına baxmayaraq, Vergilər Nazirliyində elektron ticarətin vergiyə cəlb edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericilik aktlarında dəyişikliklərin edilməsi üçün təkliflərin hazırlanması məqsədilə komissiya yaradılmışdır. Komissiya elektron ticarət sahəsində beynəlxalq tendensiyaları, eyni zamanda qabaqcıl ölkələrin bu sahədəki təcrübələrini öyrənməklə bir sıra qanunvericilik aktlarına dəyişiklik edilməsi məqsədilə qanun layihələri hazırlamış, aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla həmin layihələr hökumətə təqdim edilmişdir.

E-ticarətlə bağlı insanları düşündürən maraqlı bir sual var: internet üzərindən alver edib mal aldıqda vergi hansı şəkildə və necə ödənilməlidir? Tutaq ki, hansısa bir şirkətdən (məsələn, E-Bay'dan) mal sifariş etmək istəyirik və malın qiyməti 300 dollardır. Bu halda nə qədər vergi ödənilməlidir? «Monitor Konsaltinq» jurnalının eksperti Altay Cəfərov suala aydınlıq gətirərək bildirib ki, hər hansı bir malı, işi və xidməti sifariş verməyə görə vergi ödəmək tələb olunmur: «Tutaq ki, siz malı sifariş verə, bununla bağlı müqavilə bağlaya bilərsiniz, amma əməliyyat baş tutmaya bilər. Belə olan halda, sizin heç bir vergi öhdəliyiniz yaranmır. Vergi öhdəliyinin yaranması üçün əməliyyat baş verməlidir. Başqa sözlə, sifariş olunan mal sifarişçiyə çatdırıldıqdan və sifarişçi onu qəbul etdikdən sonra vergi öhdəliyi yaranır».

**F. İKRAMQIZI**

# «Vergi dostları» sahibkarlara köməklik göstərir

Vergilər Nazirliyi 2012-ci ildən ölkənin 53 rayonunu, 1463 kənd və qəsəbəsini əhatə edən «Vergi dostları» layihəsini həyata keçirir. Layihənin əsas icraçıları hər bir vətəndaşın hörmət etdiyi, ehtiram göstərdiyi müəllimlərdir. Seçim prosesində müəllimlərin yaşına, iş təcrübəsinə, ixtisasına, yaşadıqları ərazidə və çalışdıqları məktəbdə nüfuzuna xüsusi önəm verilib.

Hazırda ölkənin müxtəlif bölgələrində 1541 nəfər «vergi dostu» fəaliyyət göstərir. Onların əsas vəzifələri yaşadıqları ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirməkdir.

12 saylı Ərazi Vergilər Departamenti tərəfindən «vergi dostu» seçilmiş Nurlan Quliyeva Göygöl rayonunun Üçtəpə kənd tam orta məktəbinin riyaziyyat və informatika müəllimidir: «Müəllim kimi bu işə dərs dediyim uşaqları daha yaxından cəlb edirəm. Uşaqlara vergi anlayışını dərindən başa salmaq üçün onlara bir şey alarkən mağazadan verilən çekləri toplamağı tapşırıram və sonda daha çox çek yığanları mükafatlandırırıq. Bundan əlavə, vergiyə aid tərtib etdiyim məsələləri dərs zamanı həll edirik. Məktəbdə vaxtaşırı olaraq rəsm və inşa müsabiqəsi, bilik yarışları təşkil edirik». N.Quliyevanın sözlərinə görə, «vergi dostu» çərçivəsində təşkil olunmuş tədbirlərə yerli icra orqanlarının, müəllim kollektivinin, rayon təhsil şöbəsinin, kənddəki sahibkarların nümayəndələri də dəvət edilir.

«Vergi dostları» ilə işin səmərəli qurulması üçün yerli vergi orqanları ardıcıl iş aparırlar. Belə ki, qanunvericilikdə edilən dəyişikliklər qısa və anlaşılan formada «vergi dostları»na çatdırılır, elektron xidmətlər barədə yeniliklər, Vergilər Nazirliyinin internet resursları, «195» Çağrı Mərkəzi, Vergi ödəyicilərinə xidmət mərkəzlərinin məqsəd və fəaliyyəti barədə izahlı məlumatlar verilir, xidmət kanalları barədə bukletlər təqdim edilir, fəaliyyətləri barədə zəruri məlumatlar alınır və mövcud vəziyyətə görə tövsiyələr verilir.

«Vergi dostları» vergi ödəyicilərinə öz öhdəliklərini yerinə yetirməkdə, vergi bəyannamələrinin tərtitb olunmasında və vergi orqanına çatdırılmasında da köməklik göstərirlər.

**AYTƏN**

# Neft Fondunun 2016-cı il üçün büdcə layihəsi

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti iclasında Fondun 2016-cı il üçün büdcə layihəsinə, idarəetmə ilə bağlı xərclərə dair qurumun icraçı direktoru tərəfindən təqdim edilmiş məlumatlara baxılmışdır.

ARDNF-nin 2016-cı il büdcə gəlirlərinin 6 mlrd. 711 mln. 564,1 min manat, xərclərinin 8 mlrd. 261 mln. 399,7 min manat, o cümlədən fondun idarə olunması ilə bağlı xərclərinin 24 mln. 420 min manat məbləğində müəyyən edilməsi məqsədəuyğun sayılmışdır. İclasda gələn ilin büdcə layihəsi, eləcə də fondun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (investisiya siyasəti daxil olmaqla) və idarə olunması ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab edilərək Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilmişdir.

# Regionlara investisiya qoyuluşları təşviq olunur

## Bakıda Azərbaycan və ABŞ təmsilçilərinin işgüzar görüşü keçirilib

Amerika Birləşmiş Ştatları Ticarət Departamentinin və 15 nüfuzlu şirkətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə əsas müzakirə mövzusu ikitərəfli iqtisadi əlaqələrin mövcud vəziyyəti, qarşıdakı dövrdə nəzərdə tutulan əməkdaşlığın istiqamətləri olub. ABŞ səfirliyinin nümayəndəsi Derek Hoqan bildirib ki, təmsil etdiyi ölkə Azərbaycanda azad iqtisadiyyatın və sərbəst bazar münasibətlərinin inkişafına daim dəstək verib, müxtəlif layihələr çərçivəsində texniki yardım göstərib. İki ölkə arasında ticarət dövriyyəsi 2014-cü ildə 2 milyard dollar təşkil edib. ABŞ Azərbaycanda yeni sahələrdə birgə əməkdaşlıq üçün hər iki ölkənin iş adamlarını bir araya gətirmək, qarşılıqlı investisiya qoyuluşlarını təşviq etmək niyyətindədir.

Bildirilib ki, hazırkı missiyanın əsas məqsədi də iqtisadiyyat və ticarət sahəsindəki mövcud potensialı genişləndirməkdir. ABŞ Ticarət Departamenti kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, regionlarda yeni iş yerlərinin yaradılmasına sərmayə qoymağı nəzərdən keçirir. Kənd təsərrüfatının vergidən azad olunması, sənaye texnoparklarına vergi və gömrük güzəştləri ABŞ şirkətlərinin Azərbaycana marağını artırır. Bu sahələr üzrə Azərbaycan İnvestisiya Şirkəti ABŞ-la birgə müəssisə yarada bilər. Həmçinin «Globalize», «Capstonr Turbin Corporation», «OSISOFT», «Myamato» kimi şirkətlər Sumqayıt Texnologiyalar Parkında investor qismində təmsil olunmaq, regionlarda biznes-inkubatorların təşkilinə yardım etmək niyyətindədir. Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli İqtisadi Şurasını ABŞ region üçün ən yaxşı iqtisadi platforma hesab etdiyini bildirir və bu qurumun biznes layihələrinə qoşulmağa maraq göstərir.

D.Hoqan Azərbaycanda «Elektron hökumət» layihəsini müsbət dəyərləndirib, sahibkarlığın inkişafına mane olan halların qarşısının alınması, bu sahədə yoxlamaların azaldılması və lisenziyaların verilməsinin sadələşdirilməsi ilə əlaqədar Azərbaycan hökumətinin həyata keçirdiyi islahatlara böyük önəm verib: «Əminəm ki, hazırda özəl sektorun inkişafının stimullaşdırılmasına xidmət edən addımlar yaxın vaxtlarda öz müsbət təsirini daha aydın şəkildə göstərəcək, bu tədbirlər iqtisadiyyata xarici investisiyaların cəlb edilməsinə töhfə verəcək».

İqtisadiyyat və sənaye nazirinin müavini Sahil Babayev bildirib ki, bu, son 7 ildə ABŞ şirkətlərinin Azərbaycana ən böyük və genişərkibli işgüzar səfəridir. Bir neçə gün ərzində ölkəmizdə olacaq amerikalı biznesmenlərin 100-ə yaxın yerli iş adamı ilə görüşləri nəzərdə tutulur. Əsas məqsədlərdən biri ABŞ işgüzar dairələrini regionlara sərmayə qoyuluşlarına təşviq etməkdir. Bu məsələ ilə bağlı ABŞ-ın kənd təsərrüfatı və azad iqtisadi zonalar üzrə ixtisaslaşmış nüfuzlu şirkətləri nümayəndələri ilə səmərəli danışıqlar aparılacaq, regionlara səfərləri təşkil ediləcək. Nazir müavini onu da qeyd edib ki, indiyədək Azərbaycanda ABŞ investisiyalarının 90%-i neft sektoruna yönəldilib. Amerika şirkətlərinin ölkəmizə yatırdığı 10 milyard dollar həcmində sərmayənin 1 milyard dolları qeyri-neft sektorunun payına düşür.

**E.CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan il ərzində MDB ölkələrinə 300 milyon dollardan artıq kənd təsərrüfatı məhsulları ixrac edir.

Beynəlxalq Maliyyə Korporasiyası ölkəmizdə kənd təsərrüfatının sığortasının təkmilləşdirilməsinə kömək edəcək.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi «Bələdiyyələrin statistik ərazi təsnifatı» ilə bağlı dövlət standartını təsdiq edib.

Latviyanın İnvestisiyalar və İnkişaf Agentliyi Azərbaycanın İKT sahəsinə sərmayə yatıracaq.

AtaBank 2003-cü ildən indiyədək sahibkarlara SKMF xətti ilə 115 milyon manat məbləğində güzəştli kredit verib.

Dövlət Neft Fondu öz səhmlərini ABŞ fond bazarından Avropa fond bazarına transfer etməyi planlaşdırır.

İran hökuməti Azərbaycanın Aktauda yerləşən logistika mərkəzindən istifadə etməyi nəzərdən keçirir.

# Rüsum ödəmədən...

## Azərbaycan ixracatçıları 2018-ci ilədək ABŞ ərazisinə rüsumsuz və ya güzəştli şərtlərlə məhsul ixrac edə biləcəklər

ABŞ Konqresi tərəfindən «Ümumiləşdirilmiş imtiyazlar sistemi»nin (GSP) və «Ticarətin təşviqi səlahiyyəti»nin müddətinin uzadılması ilə bağlı qəbul olunmuş qanuna əsasən, Amerika bazarları azərbaycanlı biznesmenlər üçün açıq məkan hesab edilir. ABŞ Ticarət Departamentinin nümayəndəsi Maykl Lalli bildirib ki, inkişaf etmiş dövlətlərin inkişafda olan ölkələr üçün güzəştlər sistemi sayılan «GSP» proqramı çərçivəsində ixracatçılar güzəştlər nəzərdə tutulan məhsullar üzrə ABŞ-a ixrac zamanı ödədikləri gömrük rüsumlarını geri ala biləcəklər. Qeyd edilib ki, bir neçə ildir tətbiq olunan bu proqramın icra müddəti artıq başa çatsa da, ABŞ hökuməti güzəşt rejimini daha 3 il uzatmağı qərara alıb. Bu proqram çərçivəsində ölkəmizin iş adamları 100-dən artıq mal qrupu üzrə yerli mənşəli istehsal məhsullarını ABŞ bazarlarına rüsumsuz və ya aşağı dərəcəli rüsumlarla ixrac imkanı əldə edib. Azərbaycan ABŞ-a bir neçə ildir ki, kənd təsərrüfatı məhsulları ixrac edir. Güzəşt rejimi digər malların ixracını da artırmaq üçün böyük stimul olacaq. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun sədri Rüfət Məmmədov hesab edir ki, GSP proqramından istifadə etməklə yerli ixracatçılarımız böyük qazanc əldə edə biləcəklər. Proqram qeyri-neft məhsullarının ixracı üçün mühüm əhəmiyyət daşıyır.

Onu da qeyd edək ki, Azərbaycan istehsalçıları təkcə ABŞ-a deyil, Norveçin daxili istehlak bazarına da bu cür güzəştlə daxil ola biləcəklər. Bir müddət əvvəl Norveç hökuməti də Azərbaycanı GSP proqramına daxil edib və ölkədə istehsal olunan malların ixracı asanlaşdırılıb. Bundan əlavə, Avropa İttifaqı ilə elektron viza və ticarətin asanlaşdırılması üzrə digər sənədlərin imzalanması respublikamızın iş adamlarına 100-dən artıq mal üzrə Aİ bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradacaq.

**ELBRUS**

# Kredit kart sahibləri nələrə diqqət yetirməlidirlər...

Banklar və maliyyə təşkilatları tərəfindən müştərilərə müqavilə əsasında təklif edilən kredit kartı POS-terminal quraşdırılmış alqı-satqı məntəqələrində ödənişi asanlaşdıran və nağd ödənişə alternativ ödəmə vasitəsidir.

Bank mütəxəssisi Natiq Bədəlov hesab edir ki, kredit kartlarının həyatımızda önəmli rolu vardır: «Əksər kredit kartlarının debet funksiyası olduğuna görə, həmin kartlara müştəri öz şəxsi pullarını daxil edə bilər. Kredit kartlarının bəzilərinin taksit funksiyası alınmış malın dəyərini 6-9-12 aya ödəmək imkanı verir. Bu kartlar, həmçinin, ATM və mobil bankinq vasitəsilə «cash by code» funksiyasında ölkədaxili istənilən şəxsə pul köçürməyə imkan verir. Hazırda ölkəmizdə təmassız kredit kartlarının tətbiqinə başlanılıb. Ən önəmli məsələlərdən biri də budur ki, belə kartlardan xarici ölkələrdə də istifadə etmək mümkündür. Bu zaman sifariş verərkən kartı təqdim edən bankın hansı xarici ölkələrdəki banklarla əlaqəsinin olmasını öyrənmək, kartı əldə edərkən illik xidmət haqqı, nağdlaşdırma komissiyası, güzəşt müddətinin olması, kartın statusu, illik faiz dərəcəsi ilə maraqlanmaq lazımdır».

Hüquqşünas Əkrəm Həsənovun sözlərinə görə, kredit kartlarını alarkən vətəndaşlar bəzən kredit müqavilələrini oxumadan imzalayırlar və onun istifadəsinə, demək olar ki, nəzarət etmirlər: «Bundan istifadə edən bəzi banklar vətəndaşla kredit müqaviləsini bağlayarkən öz xeyrinə istədiyi şərti daxil edir. Təəssüf ki, bu gün əksər banklar istehlak krediti sahəsində vətəndaşı qorumur. Mülki Məcəllənin 741-ci maddəsinə görə, kredit üzrə faizlər ildə bir dəfə tutulmalıdır, praktikada isə görürük ki, banklarımızın, demək olar ki, hamısı bağladıqları müqavilədə ayda bir dəfə faiz hesablandığını qeyd edirlər. Vətəndaşın hər ay banka ödədiyi pul əsas məbləğdən çıxılmalıdır, faiz isə ilin sonunda qalan məbləğdən tutulmalıdır. Mülki Məcəlləyə görə, Azərbaycan vətəndaşı bağladığı istənilən əqd üzrə ödənişi vaxtından əvvəl edə bilər və bu, nəzərə alınmalıdır. Amma bəzi banklar vətəndaş vaxtından əvvəl kreditin hər hansı məbləğini ödəyəndə onu cari hesabın məbləğində saxlayır, gələn aya aid edirlər. Təbii ki, bu, sırf qanun pozuntusudur.

Mərkəzi Bankın banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları var. Həmin qaydalara görə, hər bir bank ən azı rübdə bir dəfə öz maliyyə hesabatını internet saytında yerləşdirməlidir. Bundan başqa, təəssüfdoğurucu haldır ki, Azərbaycanda fəaliyyət göstərən bankların böyük əksəriyyəti maliyyə hesabatını açıqlamır».

Əkrəm Həsənov vətəndaşların kredit kartından düzgün istifadə etmələri üçün tövsiyə edir ki, kreditə həqiqətən ehtiyac olmasını yaxşı-yaxşı ölçüb-biçmək lazımdır. Kredit kartından istifadə edərkən ödənişləri POS-terminal vasitəsilə etmək daha əlverişlidir. Bu zaman, sadəcə, kreditdən istifadə dövrü üçün faizlər gəlir.

**F.İKRAMQIZI**

# «Pul siyasəti icmalı»nın yeni nəşri

*Qlobal və regional səviyyədə gedən mürəkkəb iqtisadi proseslər dünya iqtisadiyyatına dərindən inteqrasiya olunmuş Azərbaycan iqtisadiyyatına müxtəlif kanallarla təsir göstərir. Mərkəzi Bankın 2015-ci ilin 9 ayını əhatə edən «Pul siyasəti icmalı»nda qeyd edilir ki, xarici mühitin birbaşa və dolayı təsirləri valyuta bazarında xarici valyutaya təklifin azalması, tələbin artmasında özünü büruzə vermişdir. Yeni risklərin yaranması şəraitində Mərkəzi Bank öz pul və məzənnə siyasətini makroiqtisadi və maliyyə sabitliyinin qorunması, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədlərinə yönəltmişdir.*

***Ölkə iqtisadiyyatına investisiya qoyuluşu artıb***

2015-ci ilin ilk doqquz ayında Azərbaycan iqtisadiyyatı qlobal iqtisadiyyatda baş verən proseslərin mənfi təsirlərinə yüksək davamlılıq nümayiş etdirmiş və özünün sabit inkişaf kursunu saxlamışdır. Əhalinin pul gəlirləri nominal olaraq 5,8%, real olaraq 2,1% artmışdır. Adambaşına düşən pul gəlirləri nominal olaraq 4,5% artaraq ölkənin istehlak bazarında qiymətlərin artımını 0,8 faiz bəndi üstələmişdir. Əhalinin sərəncamında qalan gəlirlər 5,7% artaraq 27,3 mlrd. manat təşkil etmişdir.

2015-ci ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatına investisiya qoyuluşu ötən ilin müvafiq dövrünə nəzərən 0,5% artaraq 11,8 mlrd. manat təşkil etmişdir. Neft sektoruna 5,3 mlrd., qeyri-neft sektoruna 6,5 mlrd. manat həcmində investisiya yönəldilmişdir. İnvestisiyaların həcmi ötən ilin müvafiq dövrünə nisbətən sənayedə 19,4%, nəqliyyat və anbar təsərrüfatında 81%, informasiya və rabitə sektorunda 2,2 dəfə, daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə 29,1%, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 7,2 dəfə artmışdır. Əsas kapitala yönəldilmiş vəsaitin 58%-i (6,8 mlrd. manat) daxili mənbələr, 42%-i (5 mlrd. manat) isə xarici mənbələr hesabına formalaşmışdır. Əvvəlki illərdə olduğu kimi, əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri üstünlük təşkil etmişdir.

2015-ci ilin 9 ayında ölkədə iqtisadi artım əsasən qeyri-neft sektorunun hesabına davam etmişdir. ÜDM real ifadədə 3,7% artaraq nominal olaraq 40,7 mlrd. manat təşkil etmişdir. ÜDM-in artımında əsas yeri qeyri-neft sektoru tutur: neft sektorunda 0,1% artım qeydə alındığı halda, qeyri-neft sektorunda bu rəqəm 6,4%-dir. ÜDM-in 68,8%-i qeyri-neft sektorunun payına düşmüşdür və iqtisadiyyatın bu sektoru ümumi artıma 3,4% bəndi artırıcı töhfə vermişdir.

İlin ilk üç rübündə valyuta bazarının ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 dəfə artmışdır. Valyuta bazarında əməliyyatların 91%-i ABŞ dollarında, qalan 9%-i isə digər valyutalarda aparılmışdır. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların həcmi dollar ilə 1,8 dəfə, avro ilə isə 2,1 dəfə artmışdır. Pul kütləsinin dəyişimindəki son meyillər nəzərə alınaraq, habelə faiz dərəcələrinin enməsinə şərait yaratmaqla iqtisadi artıma dəstək vermək məqsədilə Mərkəzi Bankın müəyyən etdiyi məcburi ehtiyat norması 2%-dən 0,5%-ə endirilmişdir.

Doqquz ay üzrə orta illik inflyasiya 3,7% təşkil etmişdir ki, bu da son 10 il üzrə orta illik istehlakçı qiymətləri indeksinin dəyişimindən 3,8% bəndi aşağıdır. İstehlak qiymətləri indeksinin komponentləri olan ərzaq qiymətləri orta illik 6%, qeyri-ərzaq qiymətləri 3%, xidmətlərin dəyəri isə 1,1% dəyişmişdir.

***Gözləntilər...***

İcmalda qeyd edilir ki, yaxın perspektivdə ölkədə iqtisadi artımın davam edəcəyi gözlənilir. Hökumətin son proqnozlarına görə, 2015-ci ildə ölkədə iqtisadi artımın 3,3%, qeyri-neft sektorunda isə 5,9% olacağı gözlənilir (Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə isə qeyri-neft sektorunda artım 7,1% olacaq).

Rəsmi proqnozlara görə, iqtisadi artımın əsas mənbəyi olan qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisi ötən illə müqayisədə 7,8% bəndi artaraq, ilin yekunu üzrə 68,8% təşkil edəcək. İqtisadi artım, əsasən, investisiya və istehlak xərcləri ilə dəstəklənəcək. 2015-ci ilin sonuna əsas kapitala investisiya qoyuluşunun real artım tempinin 9,2% təşkil edəcəyi gözlənilir. Daxili investisiyalarla yanaşı, xarici investisiyalar da iqtisadi artıma müsbət təsir edəcək. Reallaşdırılan irihəcmli neft-qaz layihələri, ölkəmizin beynəlxalq kredit reytinqinin yuxarı həddə qiymətləndirilməsi xarici investisiyaların artmasına şərait yaradır. İlin yekunu üzrə xarici investisiyaların 49% artacağı proqnozlaşdırılır. İqtisadi artımın digər mühüm amili olan əhalinin istehlak xərclərinin ilin sonuna real ifadədə 1,4% artacağı gözlənilir. İstehlakın artımına, ilk növbədə, əhali gəlirlərinin artımı şərait yaradır. İlin sonuna əhalinin real pul gəlirlərinin 1,9% artacağı proqnozlaşdırılır. Neftin dünya bazarında qiymətlərinin kəskin düşməsinə baxmayaraq, ilin sonuna xarici ticarət balansının profisitli olacağı gözlənilir.

İcmalda o da göstərilib ki, ilin sonuna inflyasiya birrəqəmli səviyyədə qalacaq. Rəsmi proqnoza görə, 2015-ci ildə Azərbaycanda orta illik inflyasiya 4,4% təşkil edəcək.

**AYTƏN**








Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Şou-biznesə aid fəaliyyətlərlə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi (gəlir və xərclərinin təhlili)

Hörmətli oxucular, əvvəlki sayımızda şou-biznesə aid fəaliyyətlərlə məşğul olan müğənnilərin (müğənniliklə məşğul olan fiziki şəxslərin) gəlirlərinin qısa təhlilini təqdim etmişdik. İndi isə müğənnilərin fəaliyyəti zamanı çəkdikləri xərcləri təhlil etməyə çalışacağıq.

Müğənnilərin xərclərinə əsasən aşağıdakıları aid etmək olar:

***Musiqiçilər qrupunun (ansambl üzvlərinin) xərcləri.*** Müğənni dəvət aldığı obyektdə (xidmətin həyata keçirildiyi arenada) ya ansambl üzvləri ilə birlikdə, ya da tək ifaçılıq edə bilər. Ansambl üzvləri ilə birlikdə ifaçılıq etdiyi halda, müğənni ilə musiqiçilər (ansambl üzvləri) arasında münasibətlər hüquqi səviyyədə sənədlərlə təmin olunmalıdır. Bunu iki yolla həll etmək olar. Birincisi, müğənni (işəgötürən) ilə hər bir ansambl üzvü (işçi) arasında əmək müqaviləsi bağlanıla və onlara əməkhaqqı ödənilə bilər. Əməkhaqqının məbləğini də müxtəlif formalarda (işəmuzd və ya vaxtamuzd) tətbiq etmək olar. İşçi hesab edilən həmin ansambl üzvlərinin əməkhaqqının hesablanması və ödənilməsi, həmçinin əmək münasibətləri ilə bağlı bütün tələblər Əmək Məcəlləsi və əmək qanunvericiliyinə aid olan digər hüquqi aktlarla tənzimlənir. İkincisi isə hər bir ansambl üzvü vergi orqanında uçota durmaqla VÖEN əldə edə və müğənni ilə həmin VÖEN-i olan musiqiçi arasında mülki-hüquqi müqavilə bağlanıla bilər. Belə müqavilə konkret icraçı-musiqiçi (məsələn, qarmonçalan və ya qarmonla ifaçılıq xidməti göstərən fiziki şəxs) tərəfindən sifarişçi-müğənniyə «musiqi alətində ifa xidmətlərinin göstərilməsi» müqaviləsi hesab ediləcəkdir və müğənni musiqiçiyə (xidmət göstərənə) xidmət haqqı ödəyəcəkdir. Musiqiçi müğənnidən aldığı xidmət haqqı üçün kassa mədaxil orderi və ya mədaxil qəbzi, həmçinin xidmətlərin təhvil-təslim edilməsi üçün akt tərtib olunaraq müğənniyə (sifarişçiyə) təsdiq üçün təqdim etməlidir.

***Prodüser xərcləri.*** Müğənninin fəaliyyətində əsas aparıcı rol oynayan şəxs kimi çıxış edən prodüserlə müğənnilər arasında da ya əmək müqaviləsi, ya da mülki-hüquqi müqavilə bağlanıla bilər. Adətən, prodüserlik edən fiziki şəxslər təkbaşına (müstəqil) fəaliyyətə üstünlük verirlər və bu baxımdan, onların VÖEN-i olmalıdır ki, bağlanılan xidmət müqaviləsi hüquqi cəhətdən təmin olunsun. Müğənni prodüserə verdiyi xidmət haqqı üçün kassa mədaxil orderi və ya mədaxil qəbzi, həmçinin xidmətlərin təhvil-təslim edilməsi üçün akt tərtib olunaraq özünə təsdiq üçün təqdim etməsini prodüserdən tələb etməlidir ki, bu xərclərin sənədləşdirilməsi təmin olunsun.

***Bəstəkarlara verilən qonorarlar.*** Bəstəkarların bəstələdiyi mahnının kütləvi ifası üçün müğənni (müəllif hüququnun digər istifadəçisi) bəstəkardan (əsərin müəllifindən) icazə alır (müəllif hüququndan istifadə edilməsinə dair razılıq) və bəstəkara qonorar (müəllif hüquqlarından istifadə haqqı) ödəməli olur. Bunun üçün də müğənni ilə bəstəkar arasında müəllif hüquqlarından istifadə haqqında müqavilə bağlanmalı, müqavilədə nəzərdə tutulan qonorarın hesablanmış məbləğindən müğənni tərəfindən (ödəmə mənbəyində) 14% vergi tutulmalı (saxlanılmalı) və qalan məbləğ bəstəkara ödənilməlidir (VM, maddə 124). Pulun bəstəkara verilməsini rəsmiləşdirmək üçün müğənni tərəfindən kassa məxaric orderi tərtib oluna bilər.

***Musiqi səhnəsinin dekor xərcləri.*** Müğənni ifa edəcəyi səhnənin əvvəlcədən baxımlı səviyyəyə gətirilməsi və texniki cəhətdən yararlı olması üçün müxtəlif dekorativ vasitələrdən istifadə etməli olur. Aydındır ki, müğənni çox hallarda dekorativ işləri özü həyata keçirmir və bu işi peşəkarlara (dekorativ səhnə ustalarına) tapşırır. Dekorativ səhnə ustaları ilə müğənnilər arasında da ya əmək müqaviləsi, ya da mülki-hüquqi müqavilə (VÖEN-i olan dekorativ səhnə ustası tərəfindən dekor xidmətlərinin göstərilməsi haqqında müqavilə) bağlanıla bilər. Müqavilədə dekor işləri zamanı səhnədə quraşdırılan hazır dekor əşyaları və istifadə olunan mal-materialların kim tərəfindən təmin ediləcəyi barədə də müddəaların olması tövsiyə olunur. Əgər quraşdırılan hazır dekor əşyaları və istifadə edilən mal-materiallar müğənni tərəfindən təmin olunarsa, birdəfəlik, yəni yalnız bir dəfə istifadə edilib yararsız hala düşənləri həmin anda müğənninin xərcləri kimi, təkrar istifadə olunanlar isə istifadəyə yararsız olduğu anda xərc kimi qəbul edilməlidir. Həmin əşyalar dekor ustası tərəfindən təmin olunarsa, belə xərclərin müğənniyə aidiyyəti olmamalıdır. Müğənni VÖEN-i olan dekorativ səhnə ustasına da verdiyi xidmət haqqı üçün kassa mədaxil orderi və ya mədaxil qəbzi, həmçinin xidmətlərin təhvil-təslim edilməsi üçün akt tərtib olunaraq özünə təsdiq üçün təqdim etməsini prodüserdən tələb etməlidir ki, bu xərclərin sənədləşdirilməsi təmin olunsun.

***Nəqliyyatla bağlı xərclər (yanacaq, saxlama, təmir və digər xərclər).*** Müğənni özünün, ona tabe olan musiqiçilərin və digər əməkdaşların, həmçinin bu xidmətlərlə bağlı alətlərin və digər əşyaların daşınması üçün ya özünə məxsus, ya da başqalarının nəqliyyat vasitələrindən istifadə edə bilər. Başqa nəqliyyat vasitələrindən istifadə üçün ya nəqliyyat vasitəsinin mülkiyyətçisi (və ya etibarnaməli şəxsi) ilə bağlanılan daşıma xidmətləri haqqında müqavilə çərçivəsində nəqliyyat xərcləri çəkilməli, ya da nəqliyyat vasitəsinin mülkiyyətçisi (və ya etibarnaməli şəxsi) ilə bağlanılan icarə müqaviləsi çərçivəsində nəqliyyat vasitəsi icarəyə götürülməli, bu nəqliyyat vasitəsinə də əmək müqaviləsi çərçivəsində sürücü təyin etməklə daşımaları həyata keçirmək olar. Nəqliyyat vasitəsi müğənniyə məxsus olduğu halda isə bu xərcin müəyyən edilməsində çətinliklər ola bilər. Sırf müğənnilik fəaliyyəti ilə bağlı xərclərinin dürüstlüyünə nail olmaq üçün müğənninin gərək ayrıca bu fəaliyyəti üçün nəzərdə tutulan nəqliyyat vasitəsi (yəni, öz şəxsi həyatı ilə bilavasitə əlaqəsi olmadan istismar olunan yüngül avtomobil, mikroavtobus, avtobus) olması daha yaxşı hal hesab edilərdi. Əgər müğənninin bir nəqliyyat vasitəsi vardırsa, bu nəqliyyat vasitəsi ilə bağlı bütün xərclərin içərisindən sahibkarlıq fəaliyyətinə aid olanlarının ayrılmasını təmin edən sənədləşmə həyata keçirmək lazım gələcəkdir. Özünə məxsus və icarəyə götürdüyü nəqliyyatla bağlı xərclərə əsasən yanacaq, yağ, digər saxlama xərcləri, təmir xərcləri (vergi məqsədləri üçün məhdudlaşdırılan hədd daxilində) və nəqliyyat vasitəsinin istismarı ilə bağlı digər xərcləri aid etmək olar. Müğənninin daşıma xidmətləri haqqında müqavilə çərçivəsində başqa nəqliyyatla bağlı yuxarıda sadalanan xərcləri əsasən nəqliyyat xidmətləri göstərən başqa şəxs (VÖEN-i olan nəqliyyatçı) tərəfindən çəkilir. Müğənni ona nəqliyyat xidmətləri göstərən başqa şəxsdən ödədiyi xidmət haqqı üçün kassa mədaxil orderi və ya mədaxil qəbzi, həmçinin xidmətlərin təhvil-təslim edilməsi üçün akt tərtib olunaraq özünə təsdiq üçün təqdim etməsini tələb edə bilər. Bu halda, mədaxil qəbzində və ya xidmətlərin təhvil-təslim aktında əks olunan xidmət haqqı müğənninin nəqliyyat xərci hesab ediləcəkdir.

## Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bu dəfə yeni hesablar planında 201 saylı «Xammal və materiallar» hesabı üzrə materialların oğurlanması, fövqəladə hadisələr nəticəsində və ya hər hansı formada itkiyə uğraması ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik.

İkili yazılışlara keçməzdən əvvəl material itkiləri ilə bağlı bəzi maraqlı məqamları təhlil edək. Materialların itkisi həm təbii (labüd təsirlərə görə, mümkünsüzlükdən), həm də təqsirli (adətən, maddi-məsul şəxsin laqeyd münasibəti nəticəsində) baş verə bilər. «Təbii itki» anlayışının mahiyyətində «itkidə təqsirlinin olmaması» durur. Çünki belə itki insanın iradəsindən asılı olmayaraq baş verir. Əlbəttə ki, itkilərə görə sığorta ödənişləri ola bilər və əldə edilən bu ödənişlərlə yenidən material almaq və itkini bərpa etmək olar. Söhbət burada materialların naturada itkisi və bunun nəticəsində materialların maddi-məsul şəxsin üzərindən silinməsindən, həmçinin vergitutmanın tətbiqindən gedir. Təbii itkinin səbəbi həmişə aydındır və baş verməsində təqsirli şəxsin mövcud olması mümkün deyildir. Məsələn, hər hansı xammalın təbii quruması və bunun nəticəsində çəkisinin azalması, sifarişlərin olmamasından məhsul istehsalında istifadə edilmədiyinə görə istifadə müddəti keçdiyindən yararsız hala düşməsi, material doğranarkən kəsici mişarın dişlərinin təsirindən qırıntı şəklində azalmalar, material doğranarkən qalan hissələrin istifadəyə tam yararsız (tullantı) olması ilə əlaqədar istifadəsinin mümkün olmaması, fövqəladə hallar nəticəsində materialların xarab və ya məhv olmasını təbii itki halları kimi qiymətləndirmək olar.

Təbii itkini yarada biləcək hadisələrdən başqa, bütün digər hallarda materialların itkisi insanın ehtiyatlılıq və ya ehtiyatsızlığından asılı olmayaraq, təqsirli hal hesab edilir. İki misal göstərək: Material anbarının qapısını bağlamağı unudub gedən anbardar həmin anbardan oğurlanan materiallara görə birbaşa məsuliyyət daşıyır və burada anbardar təqsirkardır (burada oğrunun da məsuliyyəti vardır). 2-ci misal: Anbarın qapısını lazımi qaydada bağlayan (kilidləyən) anbardar həmin anbara oğru tərəfindən fiziki təsir göstərilməklə (qapısını, divarını və ya pəncərəsini dağıdaraq girməklə) oğurlanan materiallara görə məsuliyyət daşımasa da, bu məsələyə görə oğru məsuliyyət daşıyır. Deməli, hər bir halda təqsirkar vardır (birinci halda anbardar və oğru, ikinci halda yalnız oğru) və materialların belə itkisinin əvəzinin təqsirkardan (və ya təqsirkarlardan) alınması üçün əsas var.

İstehsalat müəssisələrində adətən materialların təbii itkilərə məruz qalmasını nəzərə alaraq, aidiyyəti mütəxəssislər tərəfindən «təbii itki normaları» müəyyənləşdirilir və rəhbərlik səviyyəsində təsdiqlənir. Məsələn, mebel istehsalı ilə məşğul olan müəssisələrdə istifadə olunan materialların emalından sonra tullantı halında material qırıntıları əmələ gəlir. Belə qırıntılar çox hallarda hər hansı digər formada təkrar emala yararsız olduğu halda, məcburi itki kimi qiymətləndirilir və birbaşa məhsulun maya dəyərinə aid edilir. Bu cür itkilərin ehtimal olunan maksimum miqdarı (norması) müəssisənin bu sahə üzrə mütəxəssisləri tərəfindən təyin edilir və iş icraçıları tərəfindən istehsalat prosesində yaranan material itkilərinin miqdarına nəzarət olunur. Təyin edilən normadan artıq itkilər araşdırılır və səbəbi öyrənilir. Normadan artıq itkilər bu itkilərin baş verməsində təqsirli bilinən işi icra edən şəxsin üzərinə aid edilə bilər.

İtkilərlə bağlı Vergi Məcəlləsində konkret müddəa nəzərdə tutulub. Məcəllənin 159.5-ci maddəsinə görə, vergi ödəyicisi malları ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, fövqəladə hallardan başqa malların itməsi, əskik gəlməsi, xarab olması və ya oğurlanması vergi tutulan əməliyyat sayılır. Burada konkret olaraq fövqəladə hallardan başqa hər hansı itkinin ƏDV üçün vergitutma obyekti hesab edildiyi aydınlaşır. Lakin elə itkilər (itki kimi hesab oluna biləcək hallar) vardır ki, ƏDV üçün vergitutma obyekti hesab edilməsi məntiqsiz görünür. Yuxarıda qeyd etdiyimiz kimi, məsələn, mebel sexində material doğranarkən kəsici mişarın dişlərinin təsirindən qırıntı (tullantı) şəklində azalmalar, material doğranarkən istifadəyə tam effektsiz qalan kiçik hissələrdən ibarət tullantılar itki kimi qiymətləndirilsə də, belə itkilərə Vergi Məcəlləsinin 159.5-ci maddəsinin tətbiq edilməsi düzgün deyildir. Amma belə itkilərin normadan artıq hissəsinə 159.5-ci maddəsi tətbiq edilməlidir. Ona görə də müəssisələrdə istehsalat zərurətindən yaranan təbii itkilərə Vergi Məcəlləsinin 159.5-ci maddəsinin tətbiq olunub-olunmaması məsələsinin daimi həlli məqsədilə «istehsalatda materialların mütləq itki normaları»nın müəyyənləşdirilməsi zəruridir (bu əməliyyatlarla bağlı ikili yazılışları növbəti məqaləmizdə təqdim edəcəyik).

## Gömrük ödənişləri nağdsızlaşdırılır

*Sahibkarlıq subyektlərinin işini asanlaşdırmaq məqsədilə yaxın vaxtlarda gömrük bəyannamələrinin «ASAN xidmət» mərkəzlərində doldurulması və gömrük orqanlarına elektron formada göndərilməsi mümkün olacaq. Sahibkarlar yalnız müvafiq sənədləri «ASAN xidmət» mərkəzlərinə təqdim etməklə bəyannamənin təqdim olunmasını elektron qaydada həyata*

İslahat tədbirləri kontekstində qarşıdakı illərdə gömrük siyasətinin əsas prioritetləri kimi gömrük idarəçiliyinin təkmilləşdirilməsi və şəffaflığa əsaslanan sistemin inkişaf etdirilməsi, ticarətin asanlaşdırılması və gömrük-tarif siyasətinin təkmilləşdirilməsi, bütün gömrük ödənişlərinin nağdsız qaydada aparılması, gömrük hüquqpozmaları ilə mübarizədə mühüm rol oynayan gömrük nəzarəti metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması və müvafiq prosedurların avtomatlaşdırılması nəzərdə tutulur.

Azərbaycanın Avropa İttifaqı ilə sadələşdirilmiş viza rejimi ilə bağlı imzaladığı sazişin tələblərinə uyğun olaraq, sərhəd-keçid məntəqələrinin təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərin həlli istiqamətində də işlər aparılır. Sərhədlərin təhlükəsizliyinin icrası üçün vacib olan ilkin şərtlərdən biri maşınla oxunan biometrik pasportların tətbiqinə başlanılmasıdır. Xatırladaq ki, ölkəmizdə ötən ilin dekabrından biometrik pasportların verilməsinə başlanılıb. Bundan əlavə, biometrik identifikasiyanı tənzimləyən yeni qanunlar qəbul edilib, dövlətin miqrasiya proseslərinə nəzarəti gücləndirilib, sərhədkeçmə sənədlərinin fərdiləşdirilməsi üzrə informasiya resursları formalaşdırılıb.

Avropa İttifaqı ölkələrinə idxal-ixrac əməliyyatları zamanı sənədlərin sadələşdirilməsi və «bir pəncərə» prinsipi üzrə həyata keçirilməsi ilə bağlı görülməkdə olan işlər xarici şirkətlərin Azərbaycana cəlb etdiyi işçi qüvvəsi üçün tələb olunan sənədlərin sayının azaldılması, iş icazələri ilə bağlı qaydaların təkmilləşdirilməsi, iş adamları üçün banklar tərəfindən depozit məbləğlərinin ləğvini də əhatə edir. Qarşılıqlı xarakter daşıdığından, bu qaydalar Azərbaycanın fərdi sahibkarlarının Avropa ölkələrindəki biznes fəaliyyətinə də tətbiq olunacaq. Bunlarla yanaşı, müasir İKT imkanlarından istifadə edilməklə Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi də təkmilləşdiriləcək.

**ELBRUS**

## Qadın iş adamlarına dəstək

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə Bakı Biznes Mərkəzində «Qlobal sahibkarlıq həftəsi» çərçivəsində «Azərbaycanda qadın sahibkarlığının inkişafı» mövzusunda konfrans keçirilib.

Dövlət qurumlarının, ictimai birliklərin, beynəlxalq təşkilatların, səfirliklərin və universitetlərin nümayəndələrinin iştirak etdiyi tədbirdə ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta çıxış edərək bildirib ki, sahibkarlığın inkişafının sürətlənməsi məqsədilə Azərbaycan hökumətinin atdığı addımları alqışlayır və ABŞ hökuməti islahatların davamlı və səmərəli olması üçün tərəfdaşlıq etməyə hazırdır.

Tədbirdə vurğulanıb ki, 2008-ci ildə «Qlobal sahibkarlıq həftəsi» təsis olunandan bugünədək əhatəsini genişləndirərək 160 ölkədə keçirilir, bütün dünyada sahibkarlıq sistemlərinin qurulmasına və gücləndirilməsinə kömək edir. Builki həftəlik çərçivəsində dünyanın müxtəlif yerlərində keçirilən 30 min tədbirdə təxminən 10 mln. insan iştirak edəcək.

USAID tərəfindən dəstəklənən «Azərbaycanda kiçik sahibkarlığın inkişafına dəstək layihəsi»ni həyata keçirən ictimai birliklər konsorsiumu qadın sahibkarlığının genişləndirilməsinə dair konkret təklif və tövsiyələr paketi hazırlayıb. Azərbaycanda 400 qadına kiçik sahibkarlıqla məşğul olmağa dəstək göstərmək məqsədilə USAID həmin konsorsiuma əlavə 500 min dollar məbləğində vəsait ayırıb.

**F.İKRAMQIZI**



beynəlxalq panoram

# Vergiləri saxta müəssisələrlə saziş bağlayanlar ödəməli olacaqlar

Belarusda saxta müəssisələrlə saziş bağlayaraq iş görən şirkətlərin ödənilməmiş vergilərə məsuliyyət daşımasını nəzərdə tutan qanun layihəsi hazırlanır. Layihənin əsas mahiyyəti maliyyə tədqiqatı orqanlarına saxta müəssisələrlə əməkdaşlıq etmiş şirkətləri həmin əməliyyatlar nəticəsində ödənilməmiş vergilərə görə məsuliyyətə cəlb etməyə imkan yaratmaqdır. Dövlət Nəzarəti Komitəsi hesab edir ki, saxta müəssisələrlə əməkdaşlıq edən real sektor nümayəndələri məsələnin mahiyyətini aydın başa düşürlər. Nəzərdə tutulan dəyişiklik isə saxta müəssisələrlə əməkdaşlığın riskini artırmış olur.



Dövlət Nəzarəti Komitəsinin maliyyə araşdırmaları departamentinin direktor müavini Viktor Franskeviçin sözlərinə görə, belə riskli əməkdaşlıq uzunmüddətli perspektivdə şirkətlərə böyük problemlər yarada bilər. Məsələn, hazırda Komitənin reyestrində 6 min təsərrüfat subyekti saxta müəssisələrlə əməkdaşlıq şübhəsi ilə risk kateqoriyasına daxil edilib və aparılmış tədbirlər nəticəsində həmin müəssisələr üzrə vergidən yayınma hallarının qarşısı alınıb. Bu sahədə ediləcək dəyişikliklərdən sonra isə yalançı sahibkarlıq aparılması üçün əsas qalmayacaq: «Hökumət saxta müəssisələrlə əməkdaşlığı əlverişsiz hala gətirəcək. Şərti rəqəmlə desək, indi vergidən 10 rubl yayındıran sabah 15 rubl ödəməli olacaq».

Xatırladaq ki, Belarusda Maliyyə Araşdırmaları Departamenti və Maliyyə Monitorinqi Departamentinin birgə səyləri ilə son 2,5 il ərzində yalançı sahibkarlıqla məşğul olan 925 müəssisə aşkar edilib, onların hesablarında 128 milyard belarus rublu bloklanıb (100 min belarus rublu = 5,65 ABŞ dolları). Belə müəssisələrlə əməkdaşlıq edən təsərrüfat subyektlərinə isə 1 trln. rubl həcmində əlavə ödəmə tələbi irəli sürülüb (bunun 388 mlrd. rublu artıq büdcəyə alınıb). Maliyyə polisi onlarla saxta müəssisə təsis edərək fəaliyyət göstərən 40-dan çox cinayətkar qrupu aşkar edib.

## Xəbər lenti

**Yaponiya**nın Baş naziri bəyan etmişdir ki, biznesə investisiya qoyuluşunu stimullaşdırmaq üçün hökumət korporativ verginin dərəcəsini 30%-dən aşağı salmaq niyyətindədir. Xatırladaq ki, 2015-ci maliyyə ilində ilk addım kimi bu verginin dərəcəsi 2,51% azaldılaraq 32,11%-ə salınmışdır.

**ABŞ**-ın Ölkədaxili Vergilər Xidməti (IRS) federal vergi bəyannaməsi tərtib edən 715 mindən artıq vergi ödəyicisinə vergi identifikasiya nömrələrinin (VİN) müddətini 2016-cı il üçün uzatmalı olduqları barədə xəbərdarlıq etmişdir. Xatırladaq ki, ölkədə vergi bəyannamələri hazırlayan və ya hazırlanmasına kömək edən şəxslərin VİN-i olmalıdır. Qüvvədə olan VİN-lərin müddəti dekabrın 31-də başa çatır.

**Braziliya** hökuməti Konqresə vergilərə dair informasiya mübadiləsi haqqında dörd saziş təqdim etmişdir. Sazişlər Uruqvay, Cersi, Hernsi və Kayman adaları ilə bağlanmışdır. Konqresdə Hindistanla ikiqat vergitutma ilə bağlı mövcud sazişə informasiya mübadiləsi qaydasının əlavə edilməsi barədə protokola da baxılacaq.

**Avropa Komissiyası** Latviyaya ƏDV üzrə revers (qaytarma) mexanizminin tətbiqini davam etdirməyə icazə vermişdir. Ağac materiallarının tədarükünə aid olan bu addım ƏDV sahəsində dələduzluqla bağlı problemin həllinə yönəldilib.

**Çin** hökuməti daxili tələbatın stimullaşdırılması, o cümlədən ölkəyə giriş məntəqələrində rüsumsuz ticarət mərkəzlərinin sayının artırılması ilə bağlı qərar qəbul etmişdir.

**İsveçrə** Federal Şurası Albaniya ilə ikiqat vergitutmanın aradan qaldırılması barədə saziş protokolunu təsdiqləmişdir.

**Qazaxıstan**da benzin və dizel yanacağının hər tonu üçün aksizin dərəcəsi ikiqat artırılmışdır.

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı**nın rəqəmsal xidmətlər sahəsində ƏDV tətbiqi ilə bağlı rəhbər prinsipləri ni 100-dən çox ölkənin və yurisdiksiyanın təmsilçiləri bəyənmişlər. Prinsiplərə görə, xarici satıcılara elektron kitabların, proqram təminatlarının, musiqi, video və digər rəqəmsal malların satışı üçün sonuncu istehlakçının yerləşdiyi yurisdiksiyada qeydiyyata alınmaları və vergi ödəmələri tövsiyə olunur.

*Xarici ölkələrin təcrübəsi*

# Polşa Respublikasının vergi sistemi: fiziki şəxslərin gəlir vergisi



Polşada fiziki şəxslər gəlir vergisi, sosial sığorta ödəmələri, daşınmaz əmlak vergisi, miras və hədiyyə vergisinə cəlb edilirlər. Rezident məhdud tərəfdaşlıqların tərəfləri gəlir vergisinə öz mənfəət paylarına uyğun cəlb olunurlar. Polşada vergi sistemi ölkənin bütün ərazilərində tətbiq edilir.

Ümumi qayda olaraq, ər-arvad öz gəlirləri üzrə ayrı-ayrılıqda vergiyə cəlb olunurlar. Lakin birgə nikah zamanı ər-arvad bütün vergi ilində evli qalmaq şərtilə birgə bəyannamə təqdim edə bilərlər.

***Rezidentlik***

Gəlir vergisi məqsədləri üçün fiziki şəxs şəxsi və ya iqtisadi mənafelərinin mərkəzi Polşa olduqda və ya vergi ili ərzində Polşada qalma müddəti 183 gündən çox olduqda, Polşa rezidenti hesab olunur. Fiziki şəxs Polşa rezidenti olduqda dünyadakı gəlirləri üzrə, qeyri-rezident olduqda isə Polşa mənbəyindən əldə etdiyi gəlirlər üzrə gəlir vergisinin ödəyicisi hesab olunur.

***Vergiyə cəlb olunan gəlir***

Qanunvericilikdə gəlirin aşağıdakı növləri göstərilmişdir:

- muzdlu iş və pensiya gəlirləri də daxil olmaqla asılı xidmətlərdən gəlirlər;
- şəxsən həyata keçirilmiş peşə fəaliyyətindən gəlirlər;
- sahibkarlıq fəaliyyətindən gəlirlər;
- xüsusi kənd təsərrüfatı sektorlarından gəlirlər;
- daşınmaz əmlakın icarə haqqından gəlir;
- kapital və əmlak hüquqlarından gəlir;
- daşınmaz əmlakın, mülkiyyət hüquqlarının və daşınar əmlakın satışından gəlirlər;
- digər gəlirlər.

***Faizlər***

Bank hesablarından əldə olunan faiz gəlirləri, dövlət tərəfindən təqdim edilən faizlər və ya qiymətli kağızlar və yerli orqanlar tərəfindən təqdim edilən vekselləri üzrə gəlirlər, həmçinin investisiya fondlarında iştirak və ya bu cür iştirakın gerçəkləşməsindən əldə olunan gəlirlər son ödəmə mənbəyində 19% dərəcə ilə vergiyə cəlb edilir.

Polşada dividendlər son ödəmə mənbəyində 19% vahid dərəcə ilə, royaltilər 18% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

***Vergidən azad olunan gəlir***

Polşada sosial ödəmələrin bəzi növləri, əmlak və fərdi sığorta üzrə əldə edilmiş ödəmələr, bəzi alimentlər və müəyyən istisnalarla təqaüdlər gəlir vergisindən azaddır.

***Dərəcələr***

Gəlir vergisi ümumi gəlirə aşağıdakı vergi dərəcələri tətbiq edilməklə tutulur:

| Vergiyə cəlb olunan gəlir (ABŞ dolları ilə) | Aşağı məbləğə tətbiq edilən vergi (ABŞ dolları ilə) | Əlavə məbləğə tətbiq edilən dərəcə (%-lə) |
|---|---|---|
| 870-dək | 0 | 0 |
| 870-24000 | 0 | 18 |
| 24000-dən çox | 4200 | 32 |

Sahibkarlıq fəaliyyətindən gəlirlər 19% vahid dərəcə ilə vergiyə cəlb olunur.

Fiziki şəxslər tərəfindən kiçik miqyaslı sahibkarlıq və peşə fəaliyyətindən əldə olunan gəlirlərə aşağıdakı dərəcələr tətbiq edilir:

- həkimlər, tibb bacıları, hüquqşünaslar, iqtisadçılar, mühəndislər, arxitektorlar, tərcüməçilər və mühasiblər kimi müstəqil mütəxəssislər tərəfindən xidmət müqavilələri və ya digər oxşar müqavilələr əsasında sırf fiziki şəxslərə göstərilən xidmətlərə görə əldə olunan gəlirlərə - 20%;
- daşınmaz əmlakın idarə olunması, parkinq xidmətləri, avtomobil icarəsi və mehmanxana xidmətləri ilə bağlı gəlirlərə -17%;
- iaşə xidmətlərinin bəzi növlərindən, agentlərin komissiyaları və daşınmaz əmlakın icarəsindən əldə olunan gəlirlərə - 8,5%;
- istehsal, tikinti və nəqliyyat xidmətlərindən əldə olunan gəlirlərə - 5,5%;
- kommersiya xidmətləri, bəzi iaşə xidmətləri və dəniz balıqçılığından əldə olunan gəlirlərə - 3%.

***Güzəştlər***

Vergi ödəyicisi gəlir vergisini hesablayarkən vergidən azad edilən illik 860 dollar məbləğində fərdi güzəşti vergiyə cəlb olunan gəlirlərindən çıxa bilər. Burada məcburi tibbi sığorta müavinətləri üzrə vergi kreditlərinin tətbiqinə icazə verilir. Azyaşlı uşaqları və ya 25 yaşı tamam olmamış tələbə övladları olan vergi ödəyiciləri vergi krediti hüququndan istifadə edə bilər. Kreditin məbləği gəlir və uşaqların sayından asılıdır. İlk iki uşaq üçün vergi kreditinin məbləği uşaqların hər biri üçün 26 dollardır.

| Vergi krediti hüququndan istifadə edən vergi ödəyiciləri | vergi kreditindən istifadə məbləği |
|---|---|
| 1 uşağı olan və gəlirləri 32.000 dollaradək olan ailələr və ya tək yaşayan valideynlər | hər il 320 dollar |
| gəlir səviyyəsindən asılı olmayaraq, 2 uşağı olan ailələr | hər il 320 dollar |
| 2-dən çox uşağı olan ailələr: 3-cü uşaq üçün | hər ay 40 dollar |
| 4-cü və sonrakı uşaqların hər biri üçün | hər ay 52 dollar |

***Ödəmə mənbəyində tutulan vergilər***

Yerli dividend və faizlərə münasibətdə son ödəmə mənbəyində 19% dərəcə ilə gəlir vergisi tətbiq edilir. İşçilərə ödənilən əməkhaqqı və digər ödəmələr, həmçinin pensiya və bəzi sosial ödəmələr ödəmə mənbəyində vergiyə cəlb olunur. Vergi ödəyicisi sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda investisiya fondları, şəxsən həyata keçirilmiş peşəkar fəaliyyətin bəzi növləri və royaltidən əldə olunan gəlirlər ödəmə mənbəyində 18% dərəcə ilə vergiyə cəlb edilir. Bunlar son vergilər hesab olunmur və vergi ödəyicisinin son vergi öhdəliyi hesablanarkən çıxılır.

İllik vergi bəyannaməsi vergi ilindən sonrakı ilin aprel ayının 30-dək təqdim edilməli, ödənilməli olan bütün gəlir vergiləri də həmin tarixədək ödənilməlidir.

*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Sovet kinorejissoru, ssenarist və aktyorun soyadı. «Qafqaz əsiri», «Brilyant əl», «I» əməliyyatı və Şurikin digər macəraları» kimi məşhur filmərin rejissoru olub; 2.Fəlsəfədə hadisənin ayrılmaz, daimi, zəruri əlaməti, xassəsi; 3.Respublikamızda nəşr olunan jurnal; 4.Dağlıq Qarabağda rayon; 5.Baykal gölünün şimal hissəsində ada; 6.Kimyəvi element (metal); 9.Osmanlı imperiyasında sarayda idarə rəisi, bölmə rəhbəri, başçısı. Müasir türk dilində yaşca böyük xanımlara müraciət forması; 13.Avropada çay; 15.Qubadlı rayonunda kənd; 16.Səslənməsinə görə eyni olan, lakin yazılışına görə fərqlənən sözlərə deyilir; 17.Sakit okeanda dəniz; 18.Yunan mifologiyasında kiçik titanlardan biri; 20.Hicri təqviminin 7-ci ayı; 21.Mülk sözünün cəmi, var-dövlət mənası daşıyır. Vergi qoyulur. **Soldan sağa:** 1.Mərkəzi Amerikada dövlət; 5.Cənubi Azərbaycanda nəşr olunan ədəbiyyat dərgisi. Redaktoru doktor Cavad Heyət olmuşdur; 7.Üç tərəfdən su ilə əhatə olunan quru ərazi; 8.Aktinoidlər sinfinə aid kimyəvi element; 10.Hind-Avropa ailəsinə aid dil; 11.Qəzet və jurnallarda, radio və televiziya verilişlərində ayrıca mövzuya həsr olunmuş bölmə və ya guşə; 12.Müəyyən sistem üzrə toplanmış xəritələr toplusu; 14.XX əsrin ən nüfuzlu astronomiya və kosmonavtika üzrə alim. Məşhur kosmik orbital teleskop onun soyadını daşıyır; 19.Fransa imperatoru Napoleon Bonapartın atının adı; 21.Əsasən Cənubi Azərbaycan ərazisində yaşayan, Nadir şahın mənsub olduğu türk tayfası; 22.Sakit Okeanın cənub-qərbində ada arasında yerləşən dəniz; 23.Avstraliyada şəhər; 24.Men adasında çay; 25.Nadir, dadlı yemək.



*«Qafqaz əsiri» filmindən epizod (1966)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İmpost; 2.Litavra; 3.Moizm; 4.Barxan; 5.Romeo; 6.Qandax; 9.Siqi; 13.Opal; 15. Kerroll *(Lüis)*; 16.Abılay *(xan)*; 17.Salair; 18.Ankara; 20.Kater; 21.Tilov. **Soldan sağa:** 1.İslamabad; 5.RPQ; 7.Patriarx; 8. Emin *(Sabitoğlu)*; 10.Sevim; 11.Arizona; 12.Hanoy; 14.Kilkə; 19.Bakkara; 21.Turan; 22.Lita; 23.Kalliopa; 24.Yar; 25.Karavella.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Güləşçilərimiz mötəbər turnirə səylə hazırlaşırlar

Xəbər verdiyimiz kimi, noyabrın 27-dən 29-dək Bakı İdman Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran Pri» beynəlxalq turnirinin final mərhələsi keçiriləcək.




Hər üç güləş növü üzrə hazırlıqlarını davam etdirən yığmamızın üzvləri turnirə böyük səylə hazırlaşırlar. Azərbaycan Güləş Federasiyasının 1-ci vitse-prezidenti, Dünya Güləş Birliyi İcraiyyə Komitəsinin üzvü Namiq Əliyev media nümayəndələrinə açıqlamasında idmançılarımızın qarşıda duran tapşırıqların məsuliyyətini dərindən dərk etdiklərini bildirib: «Bilirsiniz ki, gələn il bizi Yay Olimpiya Oyunları gözləyir. Qızıl Qran Pri turnirində də əsas komandanın əksər üzvləri iştirak edəcəklər. Eyni zamanda, digər perspektivli idmançıları da sınaqdan keçirmək imkanımız olacaq. Qarşıdakı təlim-məşq toplanışlarında və yarışlarda əsas məqsədlərimizdən biri idmançılarımızın hazırlıq səviyyəsini yüksəltməkdir. Onu da deyim ki, turnirin gedişində Bakıda Avropa Güləş Konfederasiyasının konfransının keçirilməsi nəzərdə tutulub. İlk dəfə təşkil olunan bu tədbirdə Avropa və dünya güləşindəki mövcud vəziyyət müzakirə ediləcək, güləşin inkişafı üçün yeni fəaliyyət proqramının hazırlanması barədə fikir mübadiləsi aparılacaq».

Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Qızıl Qran Pri beynəlxalq turnirinin final mərhələsində 40-dan artıq ölkənin ən güclü güləşçilərinin iştirakı gözlənilir.

# Azərbaycanlı atlet dalbadal iki dünya rekorduna imza atdı

Azərbaycan idmançısı Boyanka Kostova ABŞ-da keçirilən ağır atletika üzrə dünya çempionatında iki dünya rekordu yeniləyərək qızıl medala sahib olub. Turnirdə 58 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız 252 kiloqram (112+140) nəticə ilə birdənqaldırma yarışlarında və ümumi nəticədə çinli Çen Yanıçinə məxsus dünya rekordunu yeniləyib.

Qeyd edək ki, Boyanka Kostovadan əvvəl milli komandamızın daha bir üzvü - Valentin Xristov 62 kq çəki dərəcəsində çempionatın bürünc medalına sahib olub.

# Ədliyyə işçilərinin peşə bayramı münasibətilə veloyürüş

Noyabrın 22-də Azərbaycan ədliyyə işçilərinin peşə bayramı münasibətilə Bakıda velosiped yürüşü keçirilib. Ədliyyə Nazirliyi Velosiped İdman Klubunun üzvləri və Azərbaycan Velosiped İdmanı Federasiyasının idmançıları və əməkdaşları Dövlət Bayrağı Meydanından Heydər Əliyev Mərkəzinə qədər yürüş ediblər.



Yürüşdə milli təhlükəsizlik nazirinin birinci müavini, general-leytenant Mədət Quliyev və Ədliyyə Nazirliyi Penitensiar xidmətin rəis müavini, general-mayor Hüseyn Əlixanov da iştirak ediblər. Mədət Quliyev mətbuat nümayəndələrinə müsahibəsində deyib ki, ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi işlədiyi vaxt ədliyyə naziri Fikrət Məmmədovla nazirliyin Velosiped İdman Klubunun yaradılmasına qərar veriblər: «Bundan sonra Penitensiar xidmətin nəzdində velosiped komandası formalaşdırıldı. Artıq 60-dan çox idmançı komandamızın üzvüdür. Həftədə iki dəfə məşq edir, əlamətdar günlərdə yürüş keçiririk. İdmana ayrılan vaxtı itirilmiş zaman adlandırmaq olmaz. Harada işləməyindən asılı olmayaraq, hər bir insan, xüsusilə hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər fiziki sağlamlıqlarına xüsusi diqqət yetirməlidirlər».

# Şagirdlər arasında velosiped yarışları

Yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili, perspektivli idmançıların seçilməsi və velosiped idmanında kütləviliyin təmin olunması məqsədilə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən noyabrın 17-də Binəqədi və Səbail rayonlarında, noyabrın 18-də Yasamal, 20-də Suraxanı, 21-də isə Qaradağ rayonlarında təhsil alan şagirdlər arasında yarışlar keçirilib.



Federasiyadan aldığımız məlumata görə, qarşıdakı günlərdə paytaxtın digər rayonlarının məktəbliləri arasında da velosiped üzrə çempionat təşkil olunacaq. Bu yarışlarda ilk 3 yeri tutan komandalar isə final mərhələsi gələn ilin yanvarında keçiriləcək Bakı şəhər çempionatında iştirak hüququ əldə edirlər.

mozaika

## «Sintetik mal əti»ndən kotlet

maraqlı

Hollandiyanın Maastrixt Universitetinin alimləri eksperiment çərçivəsində «sintetik mal ətindən» kotlet hazırlayıblar. «Sınaq şüşəsindən» çıxmış ət tezliklə mağazalarda görünəcək. İndi qidanın hazırlanması texnologiyaları sınaqdan keçirilir.

Süni ət hazırlanmasına dair ilk təcrübə iki il əvvəl aparılıb. Hazırda alimlər süni ət almağın daha əlyetər yollarını axtarırlar. Ətin dad keyfiyyəti üzərində də iş aparılır. Qeyd edək ki, istehsal çox baha başa gəlib. Bir tikə ətin hazırlanması üçün 300 min-dən çox avro xərclənib. Niderland alimləri güman edirlər ki, ilk münasib qiymətli süni ət supermarketlərin piştaxtalarında təxminən beş ildən sonra görünəcək.



## «Alibaba» rekord vurur...

rekordlar

Çinin «Alibaba» şirkəti noyabrın 11-də ölkədə qeyd olunan «Subaylar günü»ndə bütün mümkün rekordları qıraraq 8 dəqiqəyə 1 milyard dollarlıq mal satıb.

Alibaba Group

Ümumilikdə isə güzəştli satışların keçirildiyi sutka ərzində Çin nəhəngi mal və xidmətlərdən 14 milyard dollar əldə edib. Güzəştli satışlara bir çox beynəlxalq brendlər də qatılıb. Onların arasında İspaniyanın «Zara», Yaponiyanın «Uniqlo» və Britaniyanın «Burberry» şirkətləri də var. Satışlar dünyanın 176 ölkəsində keçirilib. Qeyd edək ki, Çində «Subaylar günü» ilin 11-ci ayının 11-ci günündə qeyd olunur. Bu təqvimdəki tək rəqəmlər tənha insanların simvolu sayılır. Həmin gün internet mağazaları öz alıcılarına böyük endirimlər təklif edir.

tarixda bu hafta

## Qarakənd faciəsi

1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Azərbaycanın yüksək vəzifəli şəxslərinin olduğu vertolyot Ermənistan silahlı qüvvələri tərəfindən vurulub. Nəticədə vertolyotda olan 22 nəfərin hamısı həlak olub. Onların arasında Azərbaycanın daxili işlər naziri Məhəmməd Əsədov, Baş prokuror İsmət Qayıbov, Baş nazirin müavini Zülfü Hacıyev, Dövlət katibi Tofiq İsmayılov, onun köməkçisi Rafiq Məmmədov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, nazir müavini Qurban Namazəliyev, millət vəkili Vəli Məmmədov,Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı, millət vəkili Vaqif Cəfərov, jurnalist Alı Mustafayev, operator Fəxrəddin Şahbazov, işıqçı Arif Hüseynzadə, bundan başqa, DQMV-nin prokuroru və daxili işlər idarəsinin rəisi, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi, fövqəladə vəziyyət rayonunun komendantı, Qazaxıstan DİN-in müavini, yüksək rütbəli milis əməkdaşları, vertolyotun heyət üzvləri də olub.

İlkin rəsmi məlumatlarda vertolyotun dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, sonradan onun vurulması faktı təsdiqlənib. Faktla bağlı 21 noyabr 1991-ci ildə Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılıb və istintaqın davam etdirilməsi üçün Respublika Prokurorluğuna verilib. Lakin hadisənin baş verdiyi ərazinin hazırda Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunması səbəbindən, cinayəti törədən şəxsləri hələ də müəyyənləşdirmək mümkün olmayıb.



faydalı

## Evdə lazım olar

Qədim el sənətimizin ən dəyərli miraslarından olan xalça maddi və mənəvi baxımdan qiymətli olduğu üçün ona qulluq da xüsusi həssaslıq tələb edir.

- Xalçanı rütubətlilik dərəcəsi yüksək olan və zəhərləyici kimyəvi maddələrin istifadə olunduğu yerlərdə saxlamaq olmaz.
- Xalçanın üzərinə iti ayaqlı mebel qoymayın.
- Döşəməyə sərilmiş xalçanı vaxtaşırı 90 və ya 180 dərəcə döndərin. Bu, onu qeyri-bərabər köhnəlmədən və aşınmadan qoruyur.
- Xalçanı divardan asmaq məsləhət deyil. Döşəməyə sərilmiş xalçalarla müqayisədə divardan asılmış xalçalara toz daha dağıdıcı təsir edir.
- Xalçanı təbii yolla qurutmaq lazımdır. Bu, xüsusilə yun xalçalara aiddir.
- Xalçanı tez-tez astar tərəfdən tozsoranla təmizləyin.
- Xalçanın üzərinə tökülmüş hər hansı mayeni dərhal təmizləmək lazımdır. Maye xalçanın üzərində nə qədər çox qalsa, ləkənin heç bir iz qalmadan təmizlənmə ehtimalı bir o qədər azalmış olar. Tökülmüş mayeni hiqroskopik parça ilə yığın, bərk çirkləri isə səliqə ilə qaşıyıb ləkəni təmizləyin.
- Yun xalçadakı qəhvə və ya çay ləkəsinin üzərinə dərhal ağ, qalın dəsmal qoyub soyuq su ilə isladın. Ləkənin qalmaması üçün əsas şərt onun xalçaya hopmamasıdır. Maye ləkəni dərhal salfetlə qurudun, bərk kütləni isə yığın. Mayenin axmaması üçün ləkənin ətrafına talk və ya nişasta səpib kənarlardan ləkənin ortasına tərəf təmizləməyə başlayın. Xüsusi köpükyaradan vasitələrdən istifadə edib sonra xalçanı qurudun və xovunu bir istiqamət üzrə hamarlayın.

## Antiterror vasitəsi

araşdırma

Güclü qoxubilmə qabiliyyətinə malik bal arıları İtaliya təhlükəsizlik qüvvələri tərəfindən terror təhlükəsinin qarşısının alınması üçün istifadə oluna bilər. Daha öncə ABŞ-da və Böyük Britaniyada aparılmış tədqiqatlar partlayıcı qurğuların aşkarlanmasında arılardan istifadənin mümkünlüyü ilə bağlı nəticəyə gəlib. Bu araşdırma İtaliyada da maraqla qarşılanıb. Belə ki, artıq bu ölkədə antiterror tədbirlərində yardımçı qüvvə olaraq «arı ordusu» yetişdiriləcək.

Florensiyada fəaliyyət göstərən enerji və ətraf mühit üzrə tədqiqatlar mərkəzinin nümayəndəsi Marino Quaranta bildirib ki, bal arıları mükəmməl qoxubilmə qabiliyyətləri ilə hava limanlarında, dəmiryol stansiyalarında və bu kimi digər məkanlarda partlayıcı qurğuların aşkarlanması və mümkün terror cəhdlərinin qarşısının alınması üçün istifadə oluna bilər.

İtaliyanın Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi Bolonyada bir neçə il bundan əvvəl müvafiq istiqamətdə başladılmış «Apiboom» layihəsinə dəstək olub.

**Müdriklər deyib ki...**

*«Uğurun iki başlıca amili var: inadkarlıq və qələbə əzmi».*

*Brayan Treysi (1944)*

